QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!


“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 049 (5769) **14 mart** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# “Qlobal Bakı Forumu dünyada mühüm beynəlxalq platformaya çevrilib”

*Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərini və İdarə Heyətinin üzvlərini qəbul edib*



Səh 2

4

**Miryana Eqqer: “BMT Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi önəm verir”**



4

**“Azərbaycanın iqtisadi potansialı gücləndikcə sosial sferada yeni-yeni addımlar atılır”**



7

**Rusiya mətbuatı Vidadi İsgəndərlinin ermənilərlə iş birliyini üzə çıxardı**



# "Qlobal Bakı Forumu dünyada mühüm beynəlxalq platformaya çevrilib"

*Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərini və İdarə Heyətinin üzvlərini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də VII Qlobal Bakı Forumunun işində iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa qəbula görə dövlətimizin başçısına minnətdarlığını ifadə edərək ölkəmizə Novruz bayramı ərəfəsində gəlmələrindən və Azərbaycan xalqı tərəfindən onlara göstərilən qonaqpərvərlikdən dərin məmnunluq hissi keçirdiklərini bildirdi. Xanım Vayra Vike-Freyberqa dövlətimizin başçısının Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyi qiyməti yüksək dəyərləndirdi. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinin genişləndiyini vurğulayan Vayra Vike-Freyberqa Mərkəzin İdarə Heyətinə yeni üzvlərin daxil olduğunu və martın 14-16-da keçiriləcək VII Qlobal Bakı Forumunun işində 50 ölkədən 500-dən artıq nümayəndənin iştirak edəcəyini vurğuladı. Xanım Vayra Vike-Freyberqa bildirdi ki, "Dünyanın yeni xarici siyasəti" mövzusunda təşkil olunacaq bu Forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin inkişafından məmnunluğunu bildirən dövlətimizin başçısı Mərkəzin coğrafi əhatə dairəsinin genişlənməsinin, Bakı Forumunun ardınca dünyanın müxtəlif ölkələrində tədbirlər keçirməsinin önəmini qeyd etdi və bunu Nizami Gəncəvi Mərkəzinin artan nüfuzunun göstəricisi kimi dəyərləndirdi. Eyni zamanda, Prezident İlham Əliyev Qlobal Bakı Forumunun dünyada mühüm beynəlxalq platformaya çevrildiyini dedi və Forum çərçivəsində qlobal əhəmiyyət daşıyan məsələlər ətrafında müzakirələr aparılmasının əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin işinə bundan sonra da ölkəmizin dəstək verəcəyini vurğuladı.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin Mərkəzin fəaliyyətinə verdiyi dəstəyə görə qurumun İdarə Heyəti adından dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.

## Rəsmi xronika

Prezident İlham Əliyev "Cinayət işləri üzrə maddi sübutlar olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, odlu silahın, onun əsas hissələrinin, hərbi sursatların, partlayıcı maddələrin və partlayıcı qurğuların verilməsi qaydası haqqında Protokol"un icrası ilə bağlı səlahiyyətli orqanların müəyyən edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev yaradıcılıq ittifaqları və birliklərinin fəaliyyəti ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Çıraqqala" abidəsində möhkəmləndirmə, bərpa-konservasiya işlərinin görülməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1480-VQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalayıb.

# "BMT İnkişaf Proqramı Azərbaycanla əməkdaşlıqdan məmnundur"

*Prezident İlham Əliyev BMT İnkişaf Proqramının nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru xanım Miryana Eqqerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı BMT İnkişaf Proqramının ölkəmizdə iyirmi ildən artıq bir dövrdə uğurla fəaliyyət göstərdiyini qeyd edərək, xüsusilə Azərbaycanın müstəqilliyinin ilk illərində bu Proqramın və BMT-nin digər ixtisaslaşmış təsisatlarının ölkəmizə dəstəyinin yüksək qiymətləndirildiyini vurğuladı.

Xanım Miryana Eqqer Azərbaycanın yüksək göstəricili orta gəlirli ölkələr sırasında olduğunu qeyd edərək BMT İnkişaf Proqramının Azərbaycanla əməkdaşlıqdan məmnun olduğunu bildirdi. O, BMT İnkişaf Proqramının iqtisadi şaxələndirmə, xırda və orta sahibkarlığın inkişafı və Azərbaycan üçün prioritet olan digər sahələrdə ölkəmizlə uzunmüddətli tərəfdaşlığa hazır olduğunu dedi. Görüşdə ölkəmizin beynəlxalq humanitar layihələrə verdiyi töhfənin əhəmiyyəti qeyd olundu, bu sahədə Azərbaycan və BMT İnkişaf Proqramı arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.



# “Azərbaycan-Çin əlaqələri müxtəlif sahələrdə uğurla inkişaf edir”

*Prezident İlham Əliyev Xarici İşlər üzrə Çin Xalq İnstitutunun prezidentini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Xarici İşlər üzrə Çin Xalq İnstitutunun prezidenti, Çin Xalq Respublikasının xarici işlər nazirinin xüsusi köməkçisi Vu Haylonqu qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Bakıda keçiriləcək VII Qlobal Forumun əhəmiyyətinə toxunuldu, bu tədbirin beynəlxalq əməkdaşlığın gücləndirilməsi işinə töhfə verdiyi vurğulandı. Qəbula görə minnətdarlığını bildirən Vu Haylonq Azərbaycana səfərindən və bu tədbirdə iştirakından məmnunluğunu ifadə etdi. O, Çin ilə Azərbaycan arasında dostluq münasibətlərinin mövcud olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycan-Çin əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini dedi və əməkdaşlığımızın yeni mərhələyə qədəm qoyduğunu bildirdi. Çinə rəsmi səfərlərini xatırlayan Prezident İlham Əliyev orada Çin Xalq Respublikasının Sədri ilə keçirdiyi görüşlər zamanı iqtisadiyyat, ticarət, infrastruktur, nəqliyyat və digər sahələrdə əlaqələrimizin inkişaf perspektivləri barədə səmərəli müzakirələrin aparıldığını qeyd etdi.

# Azərbaycanın xarici işlər naziri Çilinin ölkəmizdəki müvəqqəti işlər vəkili ilə görüşüb



Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Çili Respublikasının ölkəmizdəki müvəqqəti işlər vəkili Qabriel Xara ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Elmar Məmmədyarov Azərbaycan ilə Çili arasında münasibətlərin hazırkı səviyyəsindən məmnunluğunu ifadə edib, ikitərəfli münasibətlərin daha da inkişaf edəcəyinə əminliyini diqqətə çatdırıb. Həmçinin yüksək səviyyəli qarşılıqlı səfərlərin əməkdaşlığın genişləndirilməsi baxımından önəmli rol oynadığı vurğulanıb.

Nazir Elmar Məmmədyarov bu ilin oktyabrında keçiriləcək Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının 18-ci sammitində Çili tərəfinin yüksək səviyyədə təmsil olunacağına ümidvar olduğunu qeyd edib. Qabriel Xara ölkəsinin bütün sahələrdə Azərbaycan ilə əməkdaşlıq əlaqələrini inkişaf etdirməkdə maraqlı olduğunu bildirib. Bu baxımdan tərəflər arasında iqtisadi, ticarət, eləcə də sərmayə qoyuluşu kimi sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün biznes forumun keçirilməsinin vacibliyi vurğulanıb. Söhbət zamanı tərəflər arasında beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub. Nazir Elmar Məmmədyarov Qabriel Xaraya diplomatik fəaliyyətində uğurlar arzulayıb.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Roma Papası Fransiskə təbrik məktubu ünvanlayıb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Roma Papası Fransisk Həzrətlərinə Tacqoyma Gününün ildönümü münasibətilə təbrik məktubu göndərib.

AZƏRTAC xəbər verir ki, məktubda Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında əlaqələrin yüksək səviyyədə olması vurğulanır, ikitərəfli əməkdaşlığın dinlərarası və mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə, ümumdünya mədəni irsinin qorunmasına gələcəkdə də böyük töhfələr verəcəyinə ümid ifadə edilir.

# Anna Fotiqa: “Azərbaycana səfərim zamanı bu gözəl ölkəyə heyran qaldım



Azərbaycana səfərim zamanı bu gözəl ölkəyə heyran qaldım. Qürurverici haldır ki, Bakı arxitekturasında polşalı mütəxəssislərin də əl işləri var. Mən Bakıda olanda polşalı mühəndis Pavel Potoskinin məzarını da ziyarət etdim.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Avropa Parlamentinin müdafiə və təhlükəsizlik üzrə alt komitəsinin sədri Anna Fotiqa bildirib.

Xatırladaq ki, bir neçə gün əvvəl Azərbaycanın Polşadakı səfirliyinin təşəbbüsü ilə Anna Fotiqaya onun Azərbaycan-Polşa münasibətlərinin inkişafına verdiyi töhfəyə, həmçinin Avropa Parlamentində beynəlxalq hüquq və təhlükəsizliyin müdafiəsi istiqamətində fəaliyyətinə görə fəxri nişan təqdim edilib. Nişanın təqdim edilməsindən sonra Anna Fotiqa Polşada azərbaycanlı hərbçi, Polşa Ordusunun zabiti, Polşa Milli Ordusunun polkovniki Vəli bəy Yadigarın və polyak hərbçi, Azərbaycan Milli Ordusunun generalı Maçey Sulkeviçin məzarlarını ziyarət edərək önünə gül dəstələri qoyub. Bu barədə fotoları və informasiyanı Anna Fotiqa öz Facebook səhifəsində paylaşıb.

# Milli Məclisdə amerikalı jurnalistlərə Azərbaycan həqiqətləri barədə məlumat verilib



ABŞ-ın məşhur “John Batchelor” şou proqramının rəhbəri Con Batçelor martın 13-də Milli Məclisdə olub. AZƏRTAC xəbər verir ki, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü, deputat Cavanşir Feyziyev qonağa Azərbaycanın iqtisadi inkişafı, paytaxtımızda və regionlarda həyata keçirilən irimiqyaslı layihələr haqqında məlumat verib. Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixindən danışan deputat bildirib ki, münaqişə nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin 20 faizi işğal olunub, 1 milyondan çox insan qaçqın və məcburi köçkünə çevrilib.

Azərbaycanın əldə etdiyi nailiyyətlər, iqtisadi inkişafı barədə kifayət qədər məlumatlı olduğunu deyən Con Batçelor bildirib ki, səfərinin əsas məqsədi ölkəmiz haqqında daha geniş məlumatlar əldə etmək və bu informasiyaları ABŞ-da yaymaqdır.

“Fox” televiziyasının siyasi şərhçisi Monika Krouleyin, “BrightSphere” İnvestisiya Qrupu şirkətinin sədr müavini Nikson Koksun və digər şəxslərin də iştirak etdiyi görüşdə Azərbaycanın regiondakı vacib iqtisadi əhəmiyyətindən danışılıb.

# Miryana Eqqer: "BMT Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi önəm verir"

*Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov martın 13-də BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru xanım Miryana Eqqer ilə görüşüb.*



AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Azərbaycanın indiyədək BMT-nin İnkişaf Proqramı ilə birgə onlarla layihə həyata keçirdiyini söyləyib. Hazırda ölkəmizdə BMT-nin İnkişaf Proqramının səhiyyə, əmək və əhalinin sosial müdafiəsi sahələrini əhatə edən layihələri reallaşır. Bu layihələrin həyata keçirilməsi Azərbaycanda uğurla reallaşan bir çox islahatların nəticələrinin müsbət olmasına öz təsirini göstərir.BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Eqqer BMT-nin Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi önəm verdiyini deyib. Miryana Eqqer Azərbaycana ilk səfəri çərçivəsində tərəflər arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində fikir mübadilələri aparmaqda maraqlı olduğunu qeyd edib.

# Bahar Muradova: "Azərbaycanın hərtərəfli inkişafı nəzərdə tutulan əsas məqsəddir"




Martın 13-də Milli Məclisin insan hüquqları komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclis sədrinin müavini, insan hüquqları komitəsinin sədri Bahar Muradova Azərbaycanın son illər dinamik inkişaf yolunda olduğunu deyib. Həyata keçirilən islahatların insanların sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına yönəldildiyini bildirən Bahar Muradova qeyd edib ki, Azərbaycanın hərtərəfli inkişafı nəzərdə tutulan əsas məqsəddir. Bu məqsəd də vətəndaşların daha yaxşı yaşamasına, onların təhlükəsizliyinin təmin olunmasına istiqamətlənib.

Sonra gündəlikdəki məsələlərə baxılıb. Bahar Muradova "Ekoloji təhlükəsizlik haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Avtomobil yolları haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Aviasiya haqqında" və "İnformasiya əldə etmək haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirib ki, dəyişikliklər "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunun icrası məqsədilə edilir.

Azərbaycanda çox böyük iqtisadi layihələrin reallaşdırıldığını deyən B.Muradova qeyd edib ki, görülən işlər nəticəsində böyük yol qovşaqları, körpülər tikilir, müxtəlif infrastruktur, enerji layihələri icra edilir. "Bu fəaliyyət nəticəsində ətraf mühitə müsbət və mənfi təsirlər olur ki, bu da nəzərə alınmalı, onların qarşısının alınması və müsbət təsirlərinin genişləndirilməsi nəzərdə tutulmalıdır. Bu məqsədlə bir sıra qanunlara dəyişikliklər etmək nəzərdə tutulub",- deyə komitə sədri vurğulayıb.

Parlament Aparatının iqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov "Ekoloji təhlükəsizlik haqqında" Qanuna təklif olunan dəyişikliyin mahiyyəti barədə məlumat verərək qeyd edib ki, müəyyən fəaliyyətlər həyata keçirilərkən mütləq şəkildə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunda müəyyən olunmuş məhdudiyyətlər nəzərə alınmalıdır.

Bildirilib ki, "Su təchizatı və tullantı suları haqqında" Qanunda təklif olunan dəyişikliklər böyük şəhərlərin su təchizatı və kanalizasiya sistemlərinin layihələndirilməsi zamanı mütləq ekoloji qiymətləndirmənin aparılmasını nəzərdə tutur.

Sonra "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda təqdim edilib.

Parlament Aparatının sosial qanunvericilik şöbəsinin əmək qanunvericiliyi sektorunun müdiri Adil Vəliyev bu qanunlara təklif olunan dəyişikliklər barədə məlumat verib.

Sonra "Kommersiya sirri haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli metallar və qiymətli daşlar haqqında", "İnformasiya əldə etmək haqqında", "Daxili audit haqqında" və "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihəsi müzakirəyə çıxarılıb.

Milli Məclis Aparatının iqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov təklif olunan dəyişikliklər barədə məlumat verib. Müzakirə edilən bütün qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Siyavuş Novruzov: "Azərbaycanın iqtisadi potansialı gücləndikcə sosial sferada yeni-yeni addımlar atılır"



"Radikal müxalifət xalqı aldatmaq üçün yanlış fikirlər səsləndirir. İddia edirlər ki, guya onlar mitinqlər keçirdikləri üçün bu yeniliklər oldu. Bəziləri isə insanları inandırmağa çalışır ki, guya onların xaricdən etdikləri çıxışların nəticəsində hökumət bu dəyişikliklərə gedib. Bu iddiaların heç bir əsası yoxdur". Bu fikirləri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, bu məsələlərin həlli geniş araşdırmaların nəticəsində ərsəyə gəlib və dövlət büdcəsinin vəsaiti hesabına həm əhalinin sosial müdafiəsinin gücləndirilməsi, həm də problemli kreditlərin həlli istiqamətində qərar verildi. Onun sözlərinə görə, sosial-iqtisadi müstəvidə hansısa addım atmaq üçün ilk növbədə ölkənin iqtisadi potensialını yaratmaq lazımdır.

"Əgər ölkənin iqtisadi potensialı yoxdursa, bu məsələləri nə ilə, hansı vəsaitlə həll edəcəklər? Bəzi debatlarda bu kimi fikirlər səslənir. Guya Gürcüstanda, yaxud digər ölkələrdə hansısa mühüm dəyişikliklər var, xalqa fantastik güzəştlər edilir və s. Bunlar doğru deyil. Bu cür addımları atmaq üçün iqtisadi potensial lazımdır. Potensial olmadan bu cür addımlar atmaq mümkün deyil. Azərbaycanın iqtisadi potansialı gücləndikcə sosial sferada yeni-yeni addımlar atılır. Post sovet məkanına baxsaq görərərik ki, bu dövlətlərin heç birində sovet dönəmində bankda qalan əmanətlər xalqa qaytarılmadı. Amma Azərbaycan bu vəsaitlərin hamsını ödədi. Azərbaycanda problemli kreditlər məsələsi öz həllini tapdı. Dövlət bu yükü öz üzərinə götürdü. Həm vətəndaşı müdafiə etdi, həm də bankların marağını nəzərə aldı. Vətəndaşların banklara ödədiyi artıq vəsaitlərin yenidən vətəndaşlara qaytarılmasını da dövlət öz üzərinə götürdü.

Dünyanın müxtəlif yerlərində əmanətlərin sığortalanması var. Bu əmanətlərin yanız 30-50%-i, ən yaxşı halda 60%-i sığortalanır. Yəni əgər əmanət 60%-i sığortalanıbsa, bank iflas edərsə, o zaman vətəndaş və ya şirkətə qoyduğu vəsaitin 60%-i qaytarılır. Azərbaycanda isə bu təminat 100 %-dir. Dövlət bunu ona görə edir ki, vətəndaşın banka qoyduğu vəsait hər hansı bir səbəbdən itməsin. Bütün bu siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı durur. Atılan bütün addımlarm Azərbaycan vətəndaşının rifahına hesablanıb.

Şəhid ailələrinə verilən kompensasiya da bu yöndə atılan addımlardan biridir. Şəhid ailələrinin, müharibə veteranlarının təqaüdlərinin artırılması da önəmli məsələlərdən birikimi cəmiyyətdə çox böyük rəğbətlə qarşılandı. Onu da xatırladım ki, Azərbaycadna 80 mindən artıq müharibə veteranı var.

Yəni son bir neçə ayda çox böyük işlər həyata keçirildi. Yaradıcı şəxslər, təşkilatlarla bağlı da müvafiq qərarlar verilir və qaldırılan məsələlər qısa zamanda öz həllini tapır"-deyə, S.Novruzov vurğulayıb.

# Müdafiə naziri ön xətt bölmələrində olub

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, keçirilən genişmiqyaslı təlimlərə rəhbərlik edən müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti ön xətt bölmələrində olublar. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirə əməliyyat şəraitinin vəziyyəti barədə məruzə edilib. General-polkovnik Z.Həsənov üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib və bölmələrin daim döyüşə hazır vəziyyətdə olmasını təmin etmək məqsədilə müvafiq tapşırıqlar verib.



Bölmələrdəki şəraitlə tanış olan müdafiə naziri şəxsi heyət üçün yeni tikilən əsgər yataqxanası, silah otağı, ideoloji otaq, yeməkxana, məişət otağı, hamam, əşya anbarı, eləcə də digər xidməti obyektlərdən ibarət olan yaşayış kompleksinin açılışında iştirak edib.

Görülən işlərlə maraqlanan general-polkovnik Z.Həsənov hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlərin dövlətimizin diqqət və qayğısı sayəsində daim davam etdirildiyini xüsusi vurğulayıb. Müdafiə naziri xidmətdə fərqlənən hərbi qulluqçuları mükafatlandırıb və şəxsi heyətlə çay süfrəsi arxasında söhbət aparıb. Sonra nazir cəbhəboyu zonada yerləşən kəndlərdən birində yerli sakinlərlə görüşərək əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə yaşayış məntəqələrimizin müdafiəsi barədə söhbət edib.

# Birinci vitse-prezident Mehriban Əliyevanın Fransa səfəri: Müasir diplomatiyamızda yeni səhifə

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın martın 11-12-də Fransa Respublikasına səfəri proqramının zənginliyi, görüş və danışıqların yüksək səviyyəsi ilə yadda qaldı. Azərbaycan-Fransa əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyətə malik olan bu səfər diplomatiya tariximizə yeni səhifə kimi yazıldı. Səfər, eyni zamanda, dünya və Avropa ictimaiyyətində Azərbaycan barədə müsbət imicin formalaşmasından, ölkəmizə və şəxsən Mehriban xanım Əliyevaya böyük diqqət və hörmətdən, nəhayət, Birinci vitse-prezidentin diplomatik məharətindən xəbər verir.

Səfərin əhəmiyyətini, səciyyəvi məqamlarını bir daha diqqətə çatdıraraq, bununla bağlı fikir və mülahizələri oxucularla bölüşməyi lazım bildik.

Fransa Qərbin aparıcı, inkişaf etmiş, Avropa İttifaqının lider dövlətlərindən biridir. Paris ənənəvi olaraq Avropa və dünya siyasətinə ciddi təsir göstərir. Cənubi Qafqazda da fəallığı ilə seçilən bu ölkə ATƏT-in Minsk qrupunun həmsədridir. Onun Yerevana təsir imkanları da ayrıca söhbətin mövzusu ola



kimi qəbul edilən Azərbaycanla əlaqələrin genişlənməsində dünyanın bütün inkişaf etmiş ölkələri kimi, Fransa da maraqlıdır. Bunu Mehriban xanımın Parisdə keçirdiyi bütün görüşlərdə Fransanın yüksək vəzifəli rəsmiləri də xüsusi vurğulayırdılar.

Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfərini bir neçə aspektdən səciyyələndirmək olar. Dünya Mehriban xanımın Parisdə yüksək hörmət-izzətlə qarşılandığının, ona göstərilən ali diqqətin şahidi oldu. Bu mənzərə Fransa siyasi elitasının Mehriban xanım Əliyevanı nüfuzlu lider kimi qəbul etdiyini göstərir. Həm də onu göstərir ki, Mehriban Əliyeva Qərb ölkələrinin nəzərində müsəlman-Şərq aləminin müasir dünya ilə ayaqlaşan, eləcə də Qərb dəyərlərini dərindən anlayan mütərəqqi ictimai-siyasi xadimdir. Hazırda müsəlman ölkələrində bu statusa malik ikinci bir siyasətçi qadın tapmaq çətindir.

Səfərin digər mühüm aspektlərindən biri, qeyd etdiyimiz kimi, siyasi-iqtisadi, humanitar mövzularda yüksəksəviyyəli müzakirələrin aparılması oldu. Birinci vitse-prezidentin aparıcı şirkətlərin rəhbərləri ilə gö-





bilər. Fransada erməni diasporu və lobbisinin dövlət siyasətinə təsir göstərdiyi sirr deyil. Onlar Azərbaycan-Fransa əlaqələrini hər vəchlə əngəlləməyə, münasibətlərə kölgə salmağa çalışırlar. Lakin artıq zaman Azərbaycanın xeyrinə işləyir.

Fransa Azərbaycanla enerji sahəsində fəal əməkdaşlıq edir. "Total" şirkəti "Əsrin müqaviləsi"nin başlanğıcdan bu neft kontraktında yer alıb. Parisin Azərbaycanla münasibətlərində diqqətçəkən daha bir məqam kosmik sahədə mövcud əməkdaşlıqdır. Azərbaycan kosmik peyklərini orbitə məhz Fransanın kosmodromundan çıxarır.

Göründüyü kimi, Fransa ilə əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətində həmişə prioritet istiqamətlərdən biri olub.

Mədəniyyət sahəsində əlaqələrə gəlincə, ilk növbədə, Heydər Əliyev Fondunun Fransada həyata keçirdiyi humanitar layihələr yada düşür. Artıq bu ölkənin mədəni həyatında Fondun yeri aydın görünməkdədir. Gəlin, xatırlayaq: Parisdə terror qurbanlarına həsr olunmuş 7-ci Beynəlxalq Konqresin keçirilməsinə, Fransanın müxtəlif regionlarındakı 20-dək kilsənin bərpasına yardım, Strasburq kafedralının XIV əsrə aid olan beş vitrininin, Versal Sarayının parkındakı ümumbəşəri abidələrin bərpası, Luvr muzeyində İslam İncəsənəti Departamentinin yaradılması və sair. Kann şəhərində Azərbaycan mədəniyyəti günləri keçirildi, Parisdə Azərbaycan Mədəniyyəti Mərkəzi yaradıldı, Fransa Dövlət Şərq Dilləri və Mədəniyyətləri İnstitutunda Azərbaycan dili fakültəsi açıldı... Bu, Fransada Heydər Əliyev Fondunun dəstəyi, bilavasitə Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşdırılan layihələrin heç də tam olmayan siyahısıdır. Təsadüfi deyil ki, birinci xanım Mehriban Əliyevanın Fransa-Azərbaycan əlaqələrinin inkişafına verdiyi böyük töhfələr, mədəniyyət, elm və təhsil sahələrindəki xidmətləri Fransa görüşlərində xüsusi vurğulanırdı. Bunu Fransanın Baş naziri Eduard Filip, Senatın sədri Jerar Larşe və başqaları dilə gətirdilər. Xatırlatmaq yerinə düşər ki, bu xidmətlərinə görə birinci xanım Mehriban Əliyeva Fransa Respublikasının "Şərəf Legionunun Zabiti" dövlət ordeni ilə təltif olunub.

Beləliklə, Fransa ilə münasibətlərin inkişafı istər siyasi-iqtisadi və humanitar baxımdan, istərsə də ermənilərin anti-Azərbaycan təbliğatının neytrallaşdırılması nöqteyi-nəzərindən müstəsna əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin Fransaya münasibətdə məqsədyönlü, düşünülmüş siyasəti bu ölkənin qapılarını üzümüzə daha geniş açır. Yüksək səviyyəli qarşılıqlı səfərlər ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə güclü impuls verir, ona arzuedilən dinamika gətirir.

Birinci vitse-prezident Mehriban Əliyevanın uğurlu Paris səfəri, yüksək səviyyəli görüşləri və danışıqları, ilk növbədə, bu praqmatik, milli maraqlara xidmət edən siyasətdən qaynaqlanır.

Əminliklə deyə bilərik ki, Fransa-Azərbaycan münasibətlərində yeni səhifə açan bu səfər qarşılıqlı əlaqələrin inkişafına ciddi töhfə verdi. Yeri gəlmişkən, bu fikrə Mehriban Əliyeva ilə görüşündə Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi də şərik çıxdı. Bu gün beynəlxalq miqyasda söz və nüfuz sahibinə çevrilən, etibarlı tərəfdaş rüşləri və danışıqları Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyanın cəlb edilməsində Mehriban xanım Əliyevaya yüksək inam və etimadın, eləcə də onun şəxsi nüfuzunun göstəricisi kimi diqqəti cəlb edir. Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömerin qeyd etdiyi kimi, Fransa ilə əlaqələr həm də ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasına böyük töhfə verə və Azərbaycanın bu təşkilata inteqrasiyası üçün pəncərə rolunu oynaya bilər.

Səfər çərçivəsində keçirilən görüşləri sıralasaq, Fransanın Baş naziri Eduard Filip ilə görüşü ön sıraya qoymaq olar. Ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirən Fransa Baş nazirinin fikrincə, Azərbaycan böyük iqtisadi potensiala malikdir və ikitərəfli əməkdaşlıq üçün yaxşı perspektivlər var. Azərbaycanın neft və qeyri-neft sektorlarında çalışan fransız şirkətləri daha fəal olmalıdır.

Ardı Səh. 6

# Birinci vitse-prezident Mehriban Əliyevanın Fransa səfəri: Müasir diplomatiyamızda yeni səhifə



Əvvəli-Səh-5

Birinci vitse-prezident Mehriban Əliyeva da bu fikirləri bölüşərək iqtisadi sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu vurğuladı, fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırdı. Humanitar sahədə əməkdaşlıqdan danışarkən Mehriban Əliyeva bildirdi ki, Azərbaycanda fransız dilinə və ədəbiyyatına böyük maraq var, ölkəmizin 300-dən çox məktəbində fransız dili tədris olunur. Bundan əlavə, Azərbaycan Dillər Universitetində fransız dili və ədəbiyyatı mərkəzi, Bakı Slavyan Universitetində fransız dili mərkəzi, Bakı Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir.

Baş nazirlə təkbətək görüşün detalları tam açıqlanmasa da, səslənən fikirlər Fransanın Azərbaycanla bütün sahələrdə, xüsusən iqtisadi sahədə əməkdaşlığı daha da genişləndirmək istəyindən xəbər verir və bu, çox mühüm amil kimi diqqətəlayiqdir. Görüşdən sonra Birinci vitse-prezident Mehriban Əliyevanın və Baş nazir Eduard Filipin iştirakı ilə imzalanan Azərbaycan-Fransa sənədlərinə nəzər yetirsək, artıq bu istiqamətdə real addımların atıldığını görə bilərik. Məsələn, "Azərbaycan Mərkəzi Bankı ilə "Rotchild & Cie" bankı arasında strateji əməkdaşlıq haqqında Saziş" imzalandı. Rotşildlərin bank biznesi investisiya-bank xidmətləri, korporativ bank xidmətləri, özəl kapital qoyuluşu, aktivlərin idarə olunması kimi mühüm sahələri əhatə edir.

Yaxud Azərbaycan Respublikası ilə Fransa İnkişaf Agentliyi arasında "Dəmir yolu sektorunun inkişafı proqramı çərçivəsində Şimal-Cənub nəqliyyat dəhlizinin Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulmasına dair konvensiya", "Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi" və "Xocasən" deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılmasına dair müqavilə" ölkəmiz üçün xüsusi önəmə malik sənədlərdir. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə Hindistandan və Körfəz ölkələrindən göndərilən yüklərin Azərbaycan ərazisindən keçməklə Rusiyaya, Qərbi Avropaya, Baltikyanı və Skandinaviya ölkələrinə daşınması nəzərə alınarsa, haqqında söhbət gedən konvensiyanın icrası ölkəmizin iqtisadiyyatına böyük dividendlər gətirəcək.

Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi, "Xocasən" deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılması haqqında müqavilə isə nəqliyyat infrastrukturunun inkişafında mühüm rol oynayacaq.

Azərbaycan iqtisadiyyatının neftdən asılılığını azaltmaq, qeyri-neft sektorunu inkişaf etdirmək istiqamətində ardıcıl və davamlı iş aparır. Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə görüşdə bu barədə söhbət açıldı. Nazir Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində Birinci vitse-prezidentin mühüm rolunu qeyd etdi. Mehriban Əliyeva isə öz növbəsində, ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu, ancaq mövcud iqtisadi əməkdaşlığın real potensiala cavab vermədiyini vurğuladı. Onun fikrincə, tezliklə konkret layihələrin həyata keçirilməsinə başlanılmalı, cari ildə Azərbaycan-Fransa Hökumətlərarası İqtisadi Komissiyasının növbəti iclası keçirilməlidir. Bu təkliflər fransalı nazir tərəfindən yüksək qiymətləndirildi.

Azərbaycan dövləti üçün prioritet məsələlərdən biri də ətraf mühitin mühafizəsidir. "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Qebali ilə görüşdə Azərbaycan ilə bu şirkət arasında ətraf mühit, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu, ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı. Suyun idarə edilməsi və su itkilərinə qarşı mübarizə sahəsində ölkəmiz ("Azərsu" ASC) və Fransa şirkəti arasında əlaqələrin müsbət təcrübəsi nəzərə alınarsa, bu əməkdaşlığın perspektivləri heç bir şübhə doğurmur. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Fransa səfəri çərçivəsində "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşü də maraqlı məqamlarla yadda qaldı. Belə ki, Rotşildlər XIX əsrdə Azərbaycanda çox məşhur olublar. Bu barədə danışan Mehriban Əliyeva deyib: Bakı o zaman neft sənayesinin mərkəzi idi və Rotşild qardaşları Bakıya böyük investisiya gətirmişdilər. Bütün bunlar Bakıda neft sənayesini daha da canlandırmışdı. Rotşild qardaşları xeyriyyəçiliklə də məşğul olub, həmçinin Bakıda bir çox gözəl binalar tikiblər. "Ailəmizin Sizin ölkənizdəki fəaliyyəti barədə bilirik və hesab edirəm ki, onlar tarixdə iz qoyan fəaliyyət göstəriblər", - deyən "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri Rotşildlərin Azərbaycandakı fəaliyyətinin tarixi köklərinin olduğunu bildirdi və Mehriban Əliyevanın ölkəmizə səfər dəvətini məmnunluqla qəbul etdi.

Fransa Senatının sədri Jerar Larşe, Milli Assambleyanın sədri Rişar Ferran ilə, həmçinin Fransa-Azərbaycan dostluq qrupunun sədri və müşavirlərlə görüş, aparılan səmərəli danışıqlar isə parlamentlərarası əlaqələr, habelə mədəniyyət, elm, səhiyyə və təhsil sahələrində Azərbaycan-Fransa münasibətlərinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Səhiyyə sahəsinə gəldikdə, Fransa Milli Xərçəng İnstitutunun təsisçisi və keçmiş prezidenti professor David Hayat ilə görüş çox əlamətdar sayıla bilər. Nəzərə alsaq ki, Birinci vitse-prezident ölkəmizdə səhiyyənin inkişafına hərtərəfli diqqət və qayğı göstərir, bu sahədə Fransa-Azərbaycan əməkdaşlığının yeni istiqamətlərinin müəyyənləşdirilməsi təcrübə mübadiləsinə və iki ölkənin onkoloji mərkəzləri arasında daha sıx əməkdaşlığın yaradılmasına, müştərək layihələrin həyata keçirilməsinə təkan verəcək.

Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya səfəri iki dövlət arasında mədəni əlaqələrin inkişafı baxımından da çox əhəmiyyətlidir. Bu və digər məsələlər Fransanın birinci xanımı Brijit Makron ilə görüşdə müzakirə edildi. Brijit Makron qədim Azərbaycan mədəniyyəti incilərinin populyarlaşdırılması və beynəlxalq ictimaiyyətə çatdırılması işində Mehriban Əliyevanın müstəsna rolunu yüksək qiymətləndirdi. Onun rəhbərliyi ilə müxtəlif vaxtlarda Fransada keçirilmiş mədəni tədbirlərin əhəmiyyəti vurğulandı. İnamla demək olar ki, bu görüş ailə və qadın problemləri, gender bərabərliyi, təhsil, ətraf mühitin mühafizəsi məsələlərində əməkdaşlığın dərinləşdirilməsinə xidmət edəcək.

Səfər çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyeva Fransanın mədəniyyət naziri Frank Risterin müşayiəti ilə Parisdəki Orsey muzeyini ziyarət etdi. Bu, bir daha təsdiqlədi ki, mədəniyyət sahəsi Azərbaycan-Fransa əlaqələrinin mühüm istiqamətlərindən biridir.

Fransada keçirilən bütün görüşlərdə Azərbaycanın bir nömrəli problemi olan Dağlıq Qarabağ münaqişəsi də xüsusi diqqət yetirilən mövzulardan idi. Birinci vitse-prezident Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ölkəmizin prinsipial mövqeyini fransız hakimiyyətinin yüksək dairələrinə bir daha çatdırmaqla, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi nizamlanma prosesində Fransanın məsuliyyətinin xatırladılması üçün səfərin yaratdığı bütün imkanlardan istifadə etdi.

Bütövlükdə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya səfərini əlamətdar hadisə kimi səciyyələndirmək olar. Bu səfər, heç şübhəsiz, bütün istiqamətlər üzrə dövlətlərarası əlaqələrin inkişafında, o cümlədən ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasında, Azərbaycanın Aİ-yə inteqrasiyasında müstəsna rol oynayacaq.

**Aslan Aslanov**
*AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin və OANA-nın prezidenti*



# Əli Əhmədov Çin Xarici Əlaqələr İnstitutunun prezidenti ilə görüşüb

***Nazirlər Kabinetində Baş nazirin müavini Əli Əhmədov ölkəmizdə səfərdə olan Çin Xarici Əlaqələr İnstitutunun prezidenti Liang Jianquanqın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Nazirlər Kabinetindən "Report"a verilən məlumata görə, Baş nazirin müavini deyib ki, dost ölkələr olan Çin və Azərbaycan arasında çox yaxşı ikitərəfli münasibətlər var və bu münasibətlər davamlı olaraq inkişaf edir. Bütün sahələrdə əməkdaşlıq münasibətlərinin həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə yüksək səviyyədə olduğunu vurğulayan Ə.Əhmədov intensiv xarakterli qarşılıqlı səfərlərin bu münasibətləri daha da möhkəmləndirdiyini və əldə olunan nəticələr xalqlarımızın rifahı naminə real səmərə verdiyini bildirib.***

Qonaq Çin-Azərbaycan münasibətlərinin yüksək səviyyəsindən və sabit inkişafından razılığını ifadə edərək hər iki ölkədə qarşılıqlı siyasi etimadın daim dərinləşdiyini, əməkdaşlığın siyasi, iqtisadi, mədəni və digər sahələrində həqiqətən çox səmərəli nəticələr əldə olunduğunu, beynəlxalq və regional məsələlər üzrə sıx qarşılıqlı fəaliyyətlərin uğurlu davam etdiyini diqqətə çatdırıb. Liang Jianquanq geosiyasi baxımdan əhəmiyyətli mövqeyə malik olmaqla yanaşı, sürətlə inkişaf edən Azərbaycan və tədricən dünya iqtisadiyyatının inkişafında əhəmiyyətli mövqeyə malik olan Çin arasında əlaqələrin inkişaf perspektivlərinin məmnunedici olduğunu qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən Çin-Azərbaycan münasibətlərinin gələcək hədəfləri barədə fikir mübadiləsi aparılıb.

# Nazir: "Azərbaycanda kibertəhlükəsizlik məsələləri diqqət mərkəzindədir"



Azərbaycanda texnoloji inkişafla yanaşı, kibertəhlükəsizlik məsələləri də diqqət mərkəzindədir. AZƏRTAC xəbər verir ki, bu barədə nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə deyib.

Azərbaycanın bu istiqamətdə beynəlxalq qurumlarla əməkdaşlığını vurğulayan nazir tərəfdaşlıqdan məmnunluq ifadə edib: "Biz BMT-nin İnkişaf Proqramı ilə birgə layihələr həyata keçirirk. Bu layihələr ölkəmizdə dayanıqlı inkişafa böyük töhfə verib. Bu gün də BMT-nin İnkişaf Proqramı ilə əməkdaşlığımız davam edir. Birgə əməkdaşlıq çərçivəsində hazırlanmış "Bilik İqtisadiyyatı - Azərbaycanın İnnovasiya Yol Xəritəsi" bizim üçün çox önəmlidir. Bu layihə çərçivəsində keçirilən "İdeyadan biznesə" startap turları və məktəblərdə robototexnika laboratoriyalarının qurulması üzrə tərəfdaşlığımızdan məmnunuq", - deyə R.Quluzadə bildirib.

# Rusiya mətbuatı Vidadi İsgəndərlinin ermənilərlə iş birliyini üzə çıxardı

## Oleq Nikolayev: "Ertməni kurs yoldaşları ona Fransada sığınacaq almaqda kömək ediblər"

***"Əvvəlcə Azərbaycandan Gürcüstana qaçan, sonradan isə, Fransadan sığınacaq alan, keçmiş prokuror Vidadi İsgəndərli "Youtube"də özünün aqressiv və təxribatçı "xütbələri" ilə təəccübləndirməyi dayandırmır". Bu barədə Rusiyanın "Novıye İzvestiya" saytının siyasi yazarı Oleq Nikolayev "Vidadi İsgəndərli "ermənicə danışdı" başlıqlı məqaləsində qeyd edib. Oleq Nikolayev sözügedən məqaləsində V.İsgəndərlinin danışıqlarının səviyyəsizliyini, etik normaları həddən artıq aşdığını və həqiqətə söykənməyən iddialar irəli sürdüyünə işarə edib.***

Müəllif yazısında bildirir ki, İsgəndərli bu dəfə öz versiyalarını Dağlıq Qarabağ hadisələri ətrafında gətirib və o, ermənilərin marağından, eləcə də, Rusiyaya qarşı yalan və böhtanlarla çıxış edərək, özünün reklamını etməklə məşğuldur.

O.Nikolayev V.İsgəndərlinin artıq çoxdan və uğursuz şəkildə özünü azərbaycanlılara xatırlatmağa çalışır və nə az, nə də çox, siyasi sürgündə olan əzabkeş iddiasında olduğunu göstərməyə çalışır.

### "İsgəndərli saratovlu müxalifətçi-ekstremist Vladislav Maltsevə oxşayır"

Müəllif İsgəndərlini Saratovdan olan rusiyalı radikal müxalifətçi-ekstremist Vladislav Maltsevə bənzədib: "Mümkündür ki, İsgəndərli özünün qalmaqallı xütbələri ilə Azərbaycanda tərəfdaş tapacağını düşünür və nəticədə, siyasətdə tektonik irəliləyiş edəcəyini hesab edir. Bu mənada, İsgəndərli saratovlu müxalifətçi-ekstremist Vladislav Maltsevə oxşayır, hansı ki, o da Avropaya qaçıb və eynilə "Yotube" vasitəsi ilə Rusiyaya qarşı çıxış edir, vədlər verir ki, ölkə Oktyabr inqilabının 100-cü ildönümündə "rejim çökəcək". Ancaq Maltsevin proqnozları özünü doğrultmadıqca, aqressiyası isə qeyri-konstruktivliyə çevrildikcə, rusiyalılar anti-Rusiya ritorikasında çıxış edən əcaib "inqilabçıya", sadəcə, əllərini yelləyib-keçirlər".



### "Həmin mənbələr Ermənistanın eks-prezidenti Robert Koçaryanın xalası oğlu Sergey Akopyan və Moskva vilayətinin "Mıtşinskaya" Vəkillər Kollegiyasının hazırkı rəhbəri Araz Mirzabekyan da daxil olmaqla, onun kurs yoldaşlarıdırlar"

"Əgər Maltsev şəxsi düşüncələrindən çıxış etdiyinə and içir və başqalarının dediklərini təkrar etmədiyini deyirsə də, İsgəndərli yaxınlardakı "xütbəsində" Qarabağ hadisələri ilə bağlı irəli sürdüyü versiyalarının mənbələrini açıqlayır" deyə məqalədə bildirilir: "Həmin mənbələr Ermənistanın eks-prezidenti Robert Koçaryanın xalası oğlu Sergey Akopyan və Moskva vilayətinin "Mıtşinskaya" Vəkillər Kollegiyasının hazırkı rəhbəri Araz Mirzabekyan da daxil olmaqla, onun kurs yoldaşlarıdırlar. Vəkil Mirzabekyanın "Facebook" səhifəsində təhsil qrafasında "XHİ" abbreviaturası qeyd olunub ki, bu da Dzerjinski adına Xarkov Hüquq İnstitutu mənasını daşıyır. Hazırda ora Yaroslav Mudrı adına Hüquq Universiteti adlandırılır. 1988-ci ildə XHİ-ni eyni kursdan olan Mirzabekyan, Akopyan və İsgəndərli bitirirlər. Onlar, nəinki eyni qrupda təhsil alıblar, həm də eyni yataqxanada yaşayıblar. Tale bu "hüquqşünasları" müxtəlif şəhər və ölkələrə səpələyib: Mirzabekyan Rusiyada vəkillik yolunu davam etdirib, Akopyan karyerasını Ermənistanda qurub, İsgəndərli isə əvvəlcə Azərbaycan Prokurorluğunda fəaliyyətə başlayıb, sonra da anidən müxalifətçiliyə keçib və mühacirət edib.

### "İsgəndərlinin "xütbələrindən" nəticə çıxararaq, deyə bilərik ki, məhz erməni kurs yoldaşları onun "gözlərini açıblar"

V.İsgəndərlinin etirafına görə, o, erməni institut yoldaşları ilə əlaqələrini kəsməyib və onlarla bir çox delikat mövzuları müzakirə edib, görünür üzərində onların (ermənilərin - R.R.) təsirini daha çox hiss edib. İsgəndərlinin "xütbələrindən" nəticə çıxararaq, deyə bilərik ki, məhz erməni kurs yoldaşları onun "gözlərini açıblar" və guya Qarabağın "İlham Əliyevlə Rusiya arasında ticarət predmeti" (dırnaqlar bizimdir-R.R.) olduğunu deyiblər".

Müəllif, İsgəndərlinin Fransada siyasi sığınacaq tapmasını da təsadüf hesab etmədiyini yazır. İddia olunur ki, erməni kurs yoldaşları onun Parisdə sığınacaq almasına kömək ediblər: "Hansı ki, məhz Fransada erməni diasporu çox güclüdür və erməni siyasi lobbisi ənənəvilik alıb. Görünür, XHİ-dəki hüquqşünas kurs yoldaşları İsgəndərlinin həyatının dramatik vəziyyətində onun Parisdə yerləşməsi, lazımi sənədlərə və qrantlara yiyələnməsi üçün ona bu qərarın verilməsində kömək ediblər. İsgəndərli isə, bunun müqabilində, ona təklif olunmuş versiya üzrə Qarabağ və s. olayları yayıma çıxarmağa çalışır, əlbəttə ki, təbliğatçı türk, lakin fəaliyyətdə olan təhlükəli qismində. Çətin ki, İsgəndərli yetərli qədər azərbaycanlılara, az da olsa, təsir edə bilsin, lakin ölkənin gənc düşüncəli vətəndaşları bu kimi siyasi korroziyaya uğramış emosional və antitarix mühazirələrin təsirinə düşə bilərlər".

### "İstənilən şərləri utanmadan ata bildi"

Məqalədə, xüsusilə, qeyd olunur ki, "oturmuş" prokurorun yalan və böhtanları keçmiş SSRİ respublikalarında siyasi vəziyyəti laxlatmaqda maraqlı olan destruktiv güclərin də dadına yetib. "Əlbəttə, belə güclər Qərbi Avropa və ABŞ-dakı mərkəzlərlə əlaqəlidirlər ki, İsgəndərlinin, həmçinin, qrantverənlərinin həmin meydanda çıxışını müəyyən edib. Bakıdan olan qaçqını "Azadlıq" radiosuna və bənzər KİV-lərə dəvət etməyə başladılar ki, "müxalifətçi" mikrofonlar və qəzetlər vasitəsi ilə istənilən şərləri utanmadan ata bildi" deyə qeyd edən rusiyalı müəllif, əlavə edib ki, bütövlükdə, onun "xütbələrində" heç bir fakt, məna və sübutlar yoxdur.

**Rövşən NURƏDDİNOĞLU**

# Mətbuat Şurası qəzet yayımının monitorinqini aparacaq




Dünən Azərbaycan Mətbuat Şurasında qəzet yayımı ilə bağlı hazırkı vəziyyət müzakirə olunub. Çıxış edənlər bildiriblər ki, şəhərin müxtəlif yerlərindəki köşklərin heç də hamısı təyinatı üzrə istifadə edilmir. Onların bəzilərində çox məhdud sayda qəzet olur. Əsasən digər məhsullar satılır. Nəticədə qəzetə maraq azalır, redaksiyaların maddi durumu pisləşir. Paytaxtla yanaşı, mərkəzdən kənar yerlərdəki köşklər də tələblər səviyyəsindən aşağıdır.

İclasda həmçinin Bakı Metropoliteninin stansiyalarında, avtobus dayanacaqlarında, Beynəlxalq avtovağzalda və əhalinin sıx toplaşdığı digər yerlərdə qəzet satışı, eldə yayım işinin yaxşılaşdırılmasına ehtiyacın duyulduğu vurğulanıb.

Toplantıda qəzet yayımı ilə bağlı vəziyyətin detallarının öyrənilməsinin zəruriliyi önə çəkilib. Bu məqsədlə MŞ-nin vaxtilə mövcud olmuş monitorinq qrupunun fəaliyyəti bərpa olunub. Sabahdan işə başlayacaq qrupun əldə etdiyi nəticələr Şuranın Katibliyinə təqdim olunacaq və qruplaşdırılacaq. Məsələ Mətbuat Şurasının İdarə Heyətində kütləvi informasiya vasitələrinin rəhbərlərinin iştirakı ilə geniş müzakirə olunacaq. Ümumən qəzet yayımı ilə bağlı MŞ adından aidiyyatı qurumlara müraciətin ünvanlanması nəzərdə tutulur.

# Gürcüstanın Azərbaycana 7,4 milyon dollar borcu var

Gürcüstanın Azərbaycana olan dövlət borcu azalıb. Bu barədə Gürcüstanın Maliyyə Nazirliyinin aylıq hesabatında deyilir.

Bildirilir ki, bu il fevralın 28-nə Gürcüstanın Azərbaycana 7 milyon 435 min dollar borcu var. Yanvar ayı ilə müqayisədə qonşu ölkənin Azərbaycana olan borcu 384 min dollar azalıb. Ümumiyyətlə fevralda Gürcüstanın ümumi xarici dövlət borcu aylıq müqayisədə 18 milyon 549 min dollar azalaraq 5 milyard 448,1 milyon dollar təşkil edib. Bu məbləğin 5 milyard 280,3 milyon dolları hökumətin payına düşür. Qonşu ölkənin ən çox borcu olduğu ölkələrin ilk üçlüyündə Almaniya (323,7 milyon dollar), Fransa (252,4 milyon dollar) və Yaponiya (213,3 milyon dollar) qərarlaşıb.



# "Azərbaycanda 26 Səudiyyə Ərəbistanı şirkəti fəaliyyət göstərir"



Azərbaycanda 26 Səudiyyə Ərəbistanı şirkəti fəaliyyət göstərir. AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev deyib. Nazir bildirib ki, iki ölkənin biznes dairələri arasında əlaqələr uğurla inkişaf edir: "Səudiyyə Ərəbistanı şirkətləri indiyədək Azərbaycan iqtisadiyyatına 370 milyon dollar investisiya yatırıb. Azərbaycanda 26 Səudiyyə Ərəbistanı şirkəti fəaliyyət göstərir. Səudiyyə İnkişaf Fondu ilə məktəb tikintisi, kanal və yol tikintisi sahələrində uğurlu maliyyə əməkdaşlığı həyata keçirilib, su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri üzrə işlər davam etdirilir". Ş.Mustafayev Riyad Ticarət və Sənaye Palatasının hər iki ölkənin iş adamlarının təmsil olunacağı Müştərək İş Adamları Şurasının yaradılması ilə bağlı təklifinə Azərbaycan tərəfinin müsbət yanaşdığını qeyd edib.

# Naxçıvanın turizm imkanları genişlənir

***Naxçıvan Muxtar Respublikasının coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim tarixə malik mədəniyyət abidələri turizmin inkişafı üçün əlverişli şərait yaradır. Burada qədim dövrlərin yadigarı olan təbiət və tarixi abidələr - Möminə xatun, Qarabağlar, Yusif Küseyir oğlu, Gülüstan türbələri, əsrlərdən bəri qorunub-saxlanılan, yaşı 800 ildən artıq olan Şərq çinarı, nalbənd, tut ağacları və tarixi yaddaşı özündə əks etdirən qədim insanların ilk məskunlaşdığı yaşayış yeri olan Gəmiqaya, Kilit mağarası, möhtəşəmliyi ilə seçilən İlandağ, misilsiz təbiət abidələri olan Babək qalası, Göy-göl və yüzlərlə sənət əsərləri Naxçıvanın diyarının analoqu olmayan turizm potensialıdır.***





Zəngin təbii sərvətlərə malik olan Naxçıvan Muxtar Respublikası təbii müalicə obyektləri ilə də məşhurdur. Bu müalicə obyektlərində dünyanın müxtəlif yerlərindən gələn insanlar şəfa tapırlar. Bu ərazidə 250-dən çox mineral və müalicəvi əhəmiyyətli su mənbələrinin mövcudluğu muxtar respublikada turizmin inkişafı üçün geniş imkanlar yaradır. Həmçinin, dünyada analoqu olmayan Duzdağ və Badamlı fizioterapiya xəstəxanaları və Darıdağ Arsenli Su Müalicəxanası böyük əhəmiyyət kəsb edir. Azərbaycanın mineral su ehtiyatının 60%-i muxtar respublikanın payına düşür. Mineral suların bir hissəsi müalicə əhəmiyyətlidir. Təbii müalicə obyekti Duzdağ bir sıra xəstəliklərin müalicəsində əvəzsiz rola malikdir. Naxçıvanda müalicə turizminin təşkili üçün mövcud olan mineral, su və iqlim ehtiyatları arasında Duzdağ Fizioterapiya Mərkəzinin, Darıdağ Arsenli Su Müalicəxanasının və Ağbulaq İstirahət Mərkəzinin imkanları hesabına təşkil olunan belə müalicə turizmi xidmətləri bu baxımdan regionun ümumi turizm potensialının mühüm bir hissəsini təşkil edir. Son illər Duzdağ Fizioterapiya Mərkəzi hər il orta hesabla 3500-4000 arasında pasiyent qəbul edir. 1979-cu ildə istifadəyə verilən mərkəzdə ilk vaxtlarda lazımi şərait olmadığından, mövcud tələbatı yetərincə ödəmək qeyri-mümkün idi. 2008-ci ildən burada pasiyentlər, tibbi və digər personal üçün yaradılmış müasir şərait bu gün müalicə turizmi üçün çox əlverişli imkanlar açmışdır. Mərkəzdə ölkəmizin bir çox yerlərindən, o cümlədən Türkiyə, Gürcüstan, Ukrayna, İran, Rusiya, Tacikistan, Qazaxıstan, Almaniya, Hollandiya, Avstriya və İngiltərə kimi xarici ölkələrdən gələn insanlar yuxarı tənəffüs yolları xəstəliyinin müalicəsi üçün əlverişli imkan tapırlar. Eyni zamanda, Duzdağın və Naxçıvan şəhərinin qədim tarixi, burada yaradılmış Duz Muzeyi də tanışlıq məqsədilə gələn turistlər üçün çox gözəl fürsət olur.

Naxçıvanda böyrək daşlarının müalicəsi üçün istifadə olunan mineral su mənbələri sırasında Şahbuz rayonu ərazisindəki “Böyrək suyu” adlanan bulaq mühüm əhəmiyyətə malikdir. Burada bulaq suyunun qablaşdırılması və kütləvi istifadəsi üçün zavod fəaliyyət göstərir. Bu suyun dörd növ böyrək daşını salması faktı elmi cəhətdən təsdiqini tapıb.

Qeyd edək ki, xarici ölkələrin heç birində belə tərkibdə mineral su yoxdur. Naxçıvandakı radonlu və kükürdlü suların analoqunu xarici ölkələrdə az-az tapmaq mümkündür.

Bundan başqa, Culfa rayonu ərazisində yerləşən Darıdağ Arsenli Su Müalicəxanasında bir çox xəstəliklər müalicə olunur. Dünyanın bir çox yerlərindən buraya xəstələr müraciət edir. Darıdağ suyundan hələ qədim zamanlardan sümük-oynaq və əzələ sistemi xəstəliklərində, o cümlədən, duzlaşma adlanan xəstəliklərin müalicəsində geniş istifadə olunub. Darıdağ arsenli su dünyada ən zəngin və güclü mineral tərkibi olan müalicəvi sudur. Bu suyun bir çox xəstəliklərin müalicəsində faydalı olması kliniki təcrübələrdə də sübut olunub. 1978-ci ildən fəaliyyətə başlayan Darıdağ Arsenli Su Müalicəxanası 2005-ci ildə müasir tələblərə uyğun tərzdə yenidən qurularaq, istifadəyə verilib. Naxçıvanda müalicə turizminin inkişafına xüsusi diqqət yetirildiyindən Darıdağ arsenli su müalicə və istirahət kompleksi yaradılacaqdır. Darıdağ arsenli sudan müalicə məqsədilə geniş istifadə olunması diqqətdə saxlanılır. Bu məqsədlə ərazidə yeni kompleks inşa olunacaq, 4 mərtəbədən ibarət əsas korpusda otel və xidmət sahələri yaradılacaqdır. Burada qadın və kişilər üçün ayrı-ayrı müalicə hovuzları istifadəyə veriləcək, turistlərin istirahəti üçün lazımi şərait yaradılacaqdır.

Sağlamlığın bərpa olunması üçün münasib iqlimdən istifadə, keçmişdə olduğu kimi, müasir dövrdə də aktualdır. Belə ki, kurort məqsədilə istifadə olunan iqlim mənbələri bütün əhali üçün ilboyu istirahətin ən sərfəli mənbəyidir.

Ölkəmizin sanatoriya-kurort ehtiyatlarından səmərəli istifadə etməklə, əhalinin sağlamlığının qorunmasını əsas məqsəd kimi qarşıya qoyub. Uzun illər ərzində bu sahədə aparılmış dövlət siyasəti nəticəsində, inkişaf etmiş və kütləvi tələbatı ödəyən kurort kompleksi yaradılıb.

***Nəzakət ƏLƏDDİNQIZI***



# “Nəticə ermənilər üçün ağır olacaq”

## Azər Badamov: “Paşinyan başa düşmür ki, Azərbaycanı yox, öz xalqını aldadır”



**Müsahibimiz millət vəkili Azər Badamovdur**

***- Azər müəllim, Paşinyan Ermənistan Təhlükəsizlik Şurasının iclasını Azərbaycanın işğal olunan ərazilərində - Xankəndidə keçirdi. Bunu Paşinyanın münaqişənin sülh yolu ilə həllindən imtinası kimi qiymətləndirmək olarmı?***

- Paşinyan Ermənistan Təhlükəsizlik Şurasının iclasını Azərbaycanın işğal olunan ərazilərində keçirilməklə, beynəlxalq hüquq normalarını kobud şəkildə pozub. Ermənilərin dediyi “Qarabağ xalqı” yoxdur, erməni icması var. Həm də sübut olundu ki, Azərbaycan torpaqlarını Ermənistan işğal edib və danışıqlar da iki ölkə arasında aparılmalıdır.

***- Paşinyanın bu cür addımını ATƏT-in Minsk Qrupunun fəaliyyətinə təhqir kimi qiymətləndirmək olarmı?***

- Təbii ki, Paşinyanın bu addımı ATƏT-in Minsk Qrupunun fəaliyyətinə təhqirdir. Yəni Paşinyan ATƏT-in Minsk Qrupunu saymır və münaqişənin danışıqlar yolu ilə həll edilməsindən qaçdığına bir mesaj kimi qəbul etmək olar. Paşinyan yenə də sərsəmləyərək xalqları sülhə hazırlamağından danışır. Əgər Azərbaycan torpaqları işğal altında qalırsa, burada hansı sülhə hazırlamaqdan danışmaq olar? Ümumiyyətlə, məntiqsiz fikirləri gündəmə gətirməyə çalışan Paşinyan başa düşmür ki, Azərbaycanı yox, öz xalqını aldadır. Çünki xalqları sülhə hazırlamaq üçün birinci problem həll olunmalıdır. Əgər yenə də Paşinyan öz sərsəmliyini davam edərsə, təbii ki, nəticəsi ermənilər üçün ağır olacaqdır.

***- Məsələyə hələ də ATƏT-in Minsk Qrupunun həmsədrlərinin reaksiya verməməsi nədən irəli gəlir?***

- Məsələ ilə bağlı ATƏT-in Minsk Qrupu həmsədrlərinin susqunluğu onların münaqişəyə son qoydurulmasında maraqlı olmadıqlarının göstəricisi hesab edirəm. ATƏT-in Minsk Qrupunun həmsədrləri görünüşdə ədalətin bərpasına çalışdıqlarını göstərsə də, əslində onların heç bir fəaliyyəti yoxdur. Ümumiyyətlə, dünyada beynəlxalq hüquq və normaların təminatı yoxdur. Belə ifadələri kimlərinsə sifarişlərini yerinə yetirmək üçün istifadə etdiyi alət hesab edirəm. Çünki beynəlxalq hüquq və ədalət olsaydı, uzun illər ərzində, Azərbaycanın ərazi bütlüyünün bərpası ilə bağlı qəbul olunmuş BMT qətnamələri icra olunardı. Ona görə də, hesab edirəm ki, dünyada ikili standartlar və müəyyən sifarişlərin icrası mövcuddur. Ayrı bir insan hüquqlarının təminatı, beynəlxalq hüquq və ədalət deyilən bir məfhum dünyada yoxdur.

***- Cəbhədə erməni təxribatları baş verərsə, Azərbaycan 2016-cı il aprel zəfərini təkrarlaya bilərmi?***

- Təbii ki, təkrarlaya bilər. Azərbaycan Ordusu ən müasir silahlarla silahlanıb. Qarşısına qoyulan hər bir döyüş tapşırığını, qısa bir müddət ərzində, icra etməyə qadirdir. Ermənin Azərbaycan Ordusunun qarşısına çıxarmağa nə canlı qüvvəsi var, nə də silahları. Onlar bilirlər ki, Azərbaycan Ordusu yenidən hərəkətə keçərsə, nəticəsi onlar üçün çox ağır olacaqdır. Ona görə də, nə qədər gec deyil, Paşinyan təxribat törətməklə bağlı deyil, işğala son qoymaq istiqamətində düşünməlidir.

**GÜLYANƏ**




# Gəncədə YAP ərazi ilk partiya təşkilat sədrləri ilə görüş keçirilib

***Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatında ərazi ilk partiya təşkilat sədrləri ilə görüş keçirilib. Görüşdə YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev, YAP Gəncə şəhər təşkilatının sədr müavini, AMEA-nın Gəncə bölməsinin akademik katibi Fuad Əliyev, YAP Gəncə şəhər təşkilatı qadınlar şurasının sədri, millət vəkili Pərvin Kərimzadə və təşkilatın 252 ərazi ilk partiya təşkiltının sədrləri iştirak ediblər.***

Görüşdə millət vəkili N.Həmzəyev çıxış edərək, dünyada baş verən iqtisadi böhran, münaqişə ocaqları, gərginlik fonunda müstəqil Azərbaycanda hökm sürən əmin-amanlıqdan, sabitlik və təhlükəsizlik şəraitindən danışıb. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkənin sosial müdafiə sisteminin yenilənməsinə, yeni islahatların aparılmasına diqqət çəkən millət vəkili vurğulayıb ki, qısa zaman ərzində, böyük sosial paketin yalnız bir hissəsi kimi minimum əmək haqları, pensiyalar, tələbələrin təqaüdləri artırılıb, problemli kreditlərlə bağlı məsələnin həllinə aydınlıq gətirilib. “Azərbaycan vətəndaşını əhatə edən bu cür sosial qərarlar əhalinin maddi-rifah halının daha da yaxşılaşdırılmasının təzahürüdür” deyə natiq vurğulayıb.

YAP Sədrinin müavini Əli Əhmədovun martın 2-də keçirilən müşavirədə söylədiyi “Yeni Azərbaycan Partiyası olaraq, biz hökumətin bu siyasətini geniş ictimaiyyət arasında təbliğ etməliyik” sözlərini xatırladan N.Həmzəyev qeyd edib ki, biz partiya fəalları əldə edilən uğurlarla arxayınlaşmamalı, ölkə başçısının vətəndaşların güzəranının və rifah halının yaxşılaşması sahəsində atdığı addımlara dəstək olmalı, ölkəmizin qüdrətinin artırılmasında var qüvvə ilə çalışmalıyıq.

Görüşdə çıxış edən F.Əliyev, P.Kərimzadə, C.Bağırzadə, V.Qafarova və digərləri Prezident İlham Əliyev tərəfindən aparılan siyasətin, atılan hər bir addımın xalqımızın maddi rifah halının gücləndirilməsinə və müstəqilliyimizin daha da möhkəmlənməsinə hesablandığını qeyd ediblər.

**Rövşən NURƏDDİNOĞLU**

# Yeni qeydiyyatdan keçmiş dini icmalara şəhadətnamələr təqdim edilib



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) yeni qeydiyyatdan keçmiş dini icmalara şəhadətnamələr təqdim edilib. DQİDK-nın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Dövlət Komitəsinin rəhbərliyi, şöbə müdirləri və dini icmaların sədrləri iştirak ediblər. Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda dövlət tərəfindən din sahəsinə göstərilən diqqət və qayğı hər zaman özünü büruzə verir. Onun sözlərinə görə, müxtəlif dinlərin və millətlərin nümayəndələrinin tarixboyu sülh və əmin-amanlıq şəraitində yaşadığı ölkəmizdə multikulturalizm əsrlərdən bəri alternativi olmayan həyat tərzinə çevrilib və bu model dünyaya nümunə kimi təqdim olunmaqdadır. Qeyd edib ki, dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan sonra 900-dən çox dini qurum qeydiyyatdan keçib.

Milli mənəvi dəyərlərimizin düzgün şəkildə gənclərə çatdırılmasının önəminə toxunan sədrin birinci müavini bu məqsədlə DQİDK-nın tabeliyində yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyətində ölkədə mövcud dini konfessiyaların dəstəklənməsinə, milli-mənəvi dəyərlərə bağlılığın gücləndirilməsinə xüsusi əhəmiyyət verildiyini vurğulayıb. Dini icma sədrlərinə müvafiq tövsiyələrini verən S.Salahlı icmaları dini radikalizmə qarşı mübarizədə və dini maarifləndirmə prosesində fəal olmağa çağırıb.

Dini icma sədrləri vətəndaşların vicdan azadlığının yüksək şəkildə təmin olunması üçün yaradılan şəraitdən, dini sahəyə göstərilən qayğıdan məmnunluqlarını ifadə ediblər. Sonda dini icma sədrlərinə qeydiyyat şəhadətnamələri təqdim edilib.

# Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Bolqarıstanın müdafiə naziri ilə görüşüb



Martın 13-də Bolqarıstanın paytaxtı Sofiyada Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov ilə Bolqarıstan Respublikası Baş nazirinin ictimai asayiş və təhlükəsizlik üzrə müavini - müdafiə naziri Krasimir Karakaçanov arasında görüş keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər regional təhlükəsizlik problemləri, eləcə də maraq doğuran digər məsələlər barədə geniş fikir mübadiləsi aparıblar. Görüşdə hərbi, hərbi-texniki sahələrdə əməkdaşlığın inkişafının vacibliyi qeyd edilib və onun genişləndirilməsi istiqamətləri müzakirə olunub.

# Moskvada MDB Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin iclası keçiriləcək

Martın 14-də Moskvada Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv dövlətlərin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin iclası keçiriləcək. Bu barədə AZƏRTAC-a MDB İcraiyyə Komitəsində məlumat verilib. MDB Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsi Birlik ölkələrinin Müdafiə Nazirləri Şurasının nəzdində yaradılıb. Komitənin sədri Rusiya Silahlı Qüvvələri Baş Qərargahının rəisi, Rusiya müdafiə nazirinin birinci müavini, ordu generalı Valeri Gerasimovdur.

# Yeni Azərbaycan Partiyasının qələbələri davamlı olacaq

*YAP Bərdə rayon təşkilatının yaradılmasının 26-cı ildönümü münasibətilə tədbir keçirilib*





Dünən Yeni Azərbaycan Partiyası Bərdə rayon təşkilatı yaradılmasının 26-cı ildönümünü kimsəsiz və əlil uşaqlarla birgə keçirdi. Tədbirdən əvvəl iştirakçılar Yeni Azərbaycan Partiyasının qurucusu, dövlətimizin və xalqımızın xilaskarı Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər gül-çiçək dəstələri düzərək, əziz xatirəsini ehtiramla yad etdilər. Daha sonra xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsi, həmçinin, torpaqlarımızın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin və həyatdan getmiş YAP üzvlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbiri giriş sözü ilə açan YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya tədbir iştirakçılarını bu tarixi gün münasibətilə təbrik etdi və Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, qazandığı uğurlardan danışdı. Bildirdi ki, müstəqil Azərbaycanın, ötən müddət ərzində, keçdiyi şərəfli yüksəliş yolu Ulu Öndər Heydər Əliyevin yadigarı olan Yeni Azərbaycan Partiyasının fəaliyyət salnaməsidir: "Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin nurlu ideyalarını dönmədən uğurla həyata keçirən Möhtərəm Prezidentimiz İlham Əliyevin Sədrliyi ilə Yeni Azərbaycan Partiyası, iqtidar partiyası olaraq, Azərbaycanın əldə etdiyi uğurların şəriksiz müəllifidir və gələcəyə inamın, daha böyük uğurların, mühüm zəfərlərin təminatçısıdır. Bu gün YAP Bərdə rayon təşkilatında 11257 nəfər YAP üzvü vardır. Onlardan 4718 nəfərini qadınlar, 3443 nəfərini isə gənclər təşkil edir. Biz Yeni Azərbaycan Partiyasının üzvü olmağımızla fəxr edir, qürur duyur və partiyamızın siyasi liderinin ətrafında sıx birləşərək, Onu dəstəkləyirik".

Tədbirdə Yeni Azərbaycan Partiyası Bərdə rayon təşkilatının ilk üzvlərindən olan Vəliş Alıyev, partiyanın gənc üzvü Nərgiz Quliyeva, YAP rayon təşkilatının fəalı, Bərdə "ASAN Xidmət" Mərkəzinin əməkdaşı Toğrul Yusifov rayon təşkilatının 26-cı ildönümü ilə əlaqədar partiya üzvlərini təbrik etdilər, Partiyamızın Sədri, Möhtərəm Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşərək, daim Onun daxili və xarici siyasətini, həyata keçiridiyi islahatları dəstəkləyəcəklərini bildirdilər.

Çıxışlardan sonra YAP Bərdə rayon təşkilatının yaradılmasının 26-cı ildönümü münasibətilə məktəblilər arasında yarış təşkil olundu. "Breyn-rinq" intellektual oyunu və mini-futbol yarışının qaliblərinə qiymətli hədiyyələr təqdim edildi.

Tədbir çay süfrəsi arxasında Regional Bərdə Mədəniyyət İdarəsinin Qarabağ ansamblının kollektivinin, şəhər 3 saylı tam orta məktəbin və Bərdə Günərzi Qayğı Mərkəzinin uşaqlarının kompozisiyası ilə davam etdirildi.

***Rəfiqə Hüseynova***

# Səbaildə "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılmış həyətin açılışı olub




Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəldilən "Bizim həyət" layihəsi çərçivəsində Səbail rayonu, Badamdar qəsəbəsində abadlaşdırılan həyət, sakinlərin istifadəsinə verilib.

Yenilənən həyət Səbail rayonu, Badamdar qəsəbəsi, Cəmil Hasilov küçəsi 109,109a,110,111,113,115,117,119 saylı binaların və Badamdar yolu, 95,97,99,101,105,107 saylı binaların həyətində, ümumilikdə, 1000 nəfərdən çox sakinin yaşadığı binaları əhatə edir.

Layihə çərçivəsində abadlaşdırılan həyətlərdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınmış, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarının səmərəli keçirmələri məqsədilə idman qurğuları və meydançalar, uşaqlar üçün oyun meydançaları, söhbətgah və oturacaqlar, sakinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə müşahidə kameraları quraşdırılıbdır.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, yeni işıqlandırma dirəkləri quraşdırılan binaların fasadları və giriş hissələri də tam təmir olunaraq, onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq, 100 ədəd ağac əkilib və 1000 kv.m ərazidə yaşıllıq zolağı salınıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur.

***R.HÜSEYNOVA***

# "Gənclərin azəbaycançılıq ideologiyası ruhunda tərbiyəsi"



Dünən Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatının və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə "Gənclərin azəbaycançılıq ideologiyası ruhunda tərbiyəsi" mövzusunda gənclərlə görüş keçirilib. Görüşü giriş sözü ilə açan YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev qeyd edib ki, hər bir ölkənin dövlətlər arasında, beynəlxalq aləmdə nüfuzu və siyasi imici sosial-iqtisadi qüdrəti ilə yanaşı, eyni zamanda, onun ideoloji əsaslarının mütərəqqi və humanist xarakteri ilə dəyərləndirilir: "Vətəndaşlarının mənəvi zənginliyi, vətənpərvərliyi və tolerantlığı, əslində, həmin ölkənin dövlətçilik ideologiyasının milli və bəşəri dəyərlər üzərində qurulmasının, bilavasitə insanların mənafeyinə yönəldilməsinin real göstəricisidir. Bu mənada, böyük iftixar hissi ilə, demək lazımdır ki, ideya müəllifi və yaradıcısı Ümummilli Liderimiz Heydər Əliyev olan azərbaycançılıq məfkurəsi milli həmrəyliyi, ölkəmizdə yaşayan bütün millət və xalqların birliyini təcəssüm etdirməklə, müstəqil Azərbaycanın rəsmi dövlət ideologiyasına çevrilmişdir. Bu ideologiya Ulu Öndərin irəli sürdüyü "Xalq dövlət üçün yox , dövlət xalq üçün olmalıdır" müddəasının parlaq təzahürüdür".

Təşkilat sədri çıxışında, onu da bildirib ki, Vətən təəssübünün, vətəndaşlıq və dövlətçilik mövqeyinin üstün tutulması baxımından cəmiyyətdə hamıya eyni tələb mövcuddur: "Azərbaycançılıq Azərbaycanın dünya birliyinə inteqrasiyasının ideya əsasını təşkil edir. Biz bu ideya ilə özümüzü dünyaya tanıdır, onu mütərəqqi dünya dəyərlərini (tolerantlıq, etnik müxtəliflik) özündə birləşdirən ideologiya kimi təbliğ edirik. Prezident İlham Əliyevin öz çıxışlarında, dəfələrlə qeyd etdiyi kimi, bu gün Azərbaycanın əsas prioritetlərindən biri milli adət-ənənələrimizin təmin olunması şərtilə dünya birliyinə inteqrasiya etməsidir. Bu inteqrasiyada Azərbaycanın öz yerini tapması, eyni zamanda, milli eyniyyətini qoruyub-saxlaması müstəsna əhəmiyyət kəsb edir: Azərbaycan xalqı əsrlər boyu müstəqillik həsrətində idi. Biz müxtəlif dövrlərdə başqa-başqa dövlətlərin tərkibində yaşamışıq. Amma öz milli xüsusiyyətlərimizi itirməmişik. Nəyin hesabına? Onun hesabına ki, öz ana dilimizi, mədəniyyətimizi saxlaya bilmişik, ədəbiyyatımız inkişaf edib, milli ənənələrimiz qorunub-saxlanılıbdır. Budur, hər bir xalqın milli identifikasiyasını şərtləndirən əsas məsələlər".

Tədbirdə YAP fəallarından Ziya Məlikov, Əlövsət Məmmədov, Əlibəy Abduləzizov, Sədaqət Məhərrəmova və digərləri çıxış edərək, gənclərin azərbaycançılıq məfkurəsi əsasında tərbiyə edilməsi, onların mütərəqqi dünyagörüşünə malik şəxsiyyət kimi formalaşması, milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər ruhda böyüməsi istiqamətində görülən işlərin daha da gücləndirilməsinə diqqət çəkdilər. Qeyd etdilər ki, azərbaycançılıq ideologiyasının təkamülündə Prezident İlham Əliyev mərhələsi özünəməxsus dinamizmi ilə bu ideologiyanı zənginləşməkdə, milli ictimai şüurun əsaslarını müəyyənləşdirməkdə və Azərbaycan xalqının dünya birliyindəki mövqelərini inamla yüksəltməkdədir.

***Rəfiqə Hüseynova***

# İrəvan ABŞ-Azərbaycan əlaqələrinə görə təşviş icindədir

***ABŞ son illərdə kosmosun mənimsənilməsində Bakının əsas tərəfdaşına çevrilir. Ötən ilin dekabrında ABŞ Azərbaycana aviasiya-kosmik məhsulların da önəmli ixracını təşkil edib ki, bu ekspertlərin də diqqətindən yayınmayıb. ABŞ-dan, habelə, mülki təyyarələr və onlar üçün komplektləyicilər də alınması məsələsi ekspertlərin diqqətini cəlb edib və daha çox erməni mətbuatında müşahidə olunur ki, erməni cəmiyyəti bu kimi məqamlardan çox narahatçılıq keçirir***



Politoloq, amerikaşünas Suren Sarkisyanın fikrincə, göstərilən məhsul, formal olaraq, mülki təyinatlı olsa da, istisna etmək olmaz ki, Bakı gələcəkdə ikitəyinatlı texnologiyalar almağa başlayacaq. Sarkisyan qeyd edir ki, örnək üçün uzağa getmək lazım deyil və Azərbaycan ötən il mülki "Bell-412" helikopterləri alıb və bunları hərbiləşdirib. Erməni politoloq "Sputnik Armeniya"ya müsahibədə deyib ki, münaqişə edən ölkələrə silah tədarükünü yasaqlayan bir sıra hüquqi normalar var. O, qeyd edib ki, əgər ABŞ yenə də silah satmağa başlasa, bunu balanslı şəkildə etməlidir və ABŞ-ı Bakıya hərbi yardım göstərməyi qadağan edən "907-ci düzəliş" hələ də qüvvədədir.

Kosmosun mənimsənilməsində ABŞ-ın Azərbaycanın tərəfdaşına çevrilməsi, sözsüz ki, erməni cəmiyyətini narahat etməyə bilməz. Ümumiyyətlə, ölkəmizin hər hansı müstəvidə tərəfdaşlığı işğalçı ölkənin yuxusunu ərşə çəkir və işğalçılar narahatlıqlarını gizlətmirlər də. Ələlxüsus, ABŞ kimi fövqəldövlətlə ölkəmiz arasındakı əlaqə indi ermənilərin kürkünə birə salıb desək, heç yanılmarıq. Yəni ölkəmizin təkcə aviasiya deyil, istənilən sahədə ABŞ-la tərəfdaşlığını işğalçılar heç cür həzm edə bilməzlər.

Məsələ burasındadır ki, işğalçıların erməni mətbuatında təzahür edən narahatçılığı təkcə aviasiya səhəsində əməkdaşlıq, yaxud kosmosun mənimsənilməsində ABŞ-ın Azərbaycana tərəfsaş olması deyil. Bu məsələdə erməni cəmiyyətini narahat edən həm də Vaşinqtonun Bakı ilə aviasiya sahəsində tərəfdaşlığıdır. Daha dəqiq desək, ermənilər ölkəmizin aviasiya sahəsində daha da mükəmməl texnikalara malik olmasından bərk narahatdırlar.

Əslində, işğalçı dövlət, onsuz da, ölkəmizin hərbi qüdrətindən xəbərdardır və bunu heç cür qəbul edə bilmir. Ermənistan mətbuatında tez-tez dolayısı ilə ölkəmizin hərbi qüdrətini əks etdirən materiallara da rast gəlmək olur. Yəni işğalçılar ölkəmizin hərbi gücünü, qüdrətini, ələlxüsus, onlarla müqaisə olunmayacaq dərəcədə çox böyük olan imkanlarını açıq şəkildə etiraf edirlər. "Azərbaycan tərəfi müharibəyə hazırlaşır" deyə qorxuya düşmələri də əbəs deyil. Bu qorxu qeyd etdiyimiz etirafın tam aydın şəkildə təzahürüdür.

### İşğalçılar, yaxşı başa düşürlər ki, indi ABŞ Ermənistanla deyil, Azərbaycanla əlaqələrə və tərəfdaşlığa maraqlıdır

Yeri gəlmişkən, Azərbaycana dövlət səviyyəsində Amerikanın yardım göstərməyini məhdudlaşdıran "Azadlığa dəstək aktı"na "907-ci düzəliş"in təsirini dayandırmaq üçün ABŞ prezidentinin öz səlahiyyətlərindən istifadə edə biləcəyini Donald Trampın milli təhlükəsizlik üzrə müşaviri Con Bolton da keçən ilin oktyabrında bildirib. Elə, məhz bundan sonra erməni ekspertlərin əl-ayağa düşməsini başa düşmək də çətin deyil. Ekspertlərin çoxu o zaman bu bəyanatı Bakıya silah satışı üçün Vaşinqtonun əl-qolunu açmaq cəhdi kimi dəyərləndirirdi. Yəni erməni, yaxud ermənipərəst ekspertlər ABŞ-ın Azərbaycanla tərəfdaşlıqlarını, Con Boltonun sözügedən fikirlərini Amerikanın ölkəmizə silah satışı planı kimi təqdim etməyə cəhd edirdilər. Erməni əsilli ekspertlər, ən azından, bu cəhdləri ilə hələ də narahatlıqlarını ifadə edir və qorxularını gizlədə bilmirlər.

Erməni politoloq Sarkisyan, indi bar-bar bağırır ki, ay aman, ABŞ, bütünlükdə, kosmosun mənimsənilməsində son illərdə Bakının əsas tərəfdaşına çevrilir. Haykүy salır ki, Azərbaycan ABŞ və Fransa ilə birlikdə kosmos sahəsində bir sıra layihələr gerçəkləşdirir. Hətta ölkəmizin son illərdə orbitə bir neçə sputnik buraxmasını da son dərəcə aqressiv şəkildə şərh edir və öz narahatlığını gizlədə bilmir. Nəyə görə bu erməni politoloq belə narahatdır və səbəb nədir ki, Azərbaycanın aviasiya məsələləri bir tərəfə, sputnik buraxması da belə qorxu doğurur?

Sarkisyan ehtimal edir ki, bu sputniklər, lazım olduğu anda, Ermənistana qarşı istifadə olunacaq. Hətta etiraf da edir ki, rəsmi İrəvan bu şəraitdə ABŞ və Azərbaycanın aviasiya və kosmos sahəsində iş birliyinə, praktik olaraq, mane ola bilmir. Ermənistan dövlətinin bunun üçün resurs və imkanlarının son dərəcə az olduğunu da açıq şəkildə etiraf edir. Çox gülünc olan məqam isə, ondan ibarətdir ki, politoloq Suren, alınan malların ikili təyinatının təsdiqlənəcəyi təqdirdə, ABŞ-dakı erməni lobbiçilik strukturlarının mane olmaq üçün müəyyən iş görəcəyini belə dilə gətirir.

Məsələ burasındadır ki, belə hədə-qorxular, sanksiyaya bənzər sözlər və yaxud təhdidlər ABŞ kimi fövqəldövlətin vecinə də deyil. ABŞ-ın hansısa erməni toplumuna görə qorxuya düşəcəyinə heç erməni politoloqun özü belə inanası deyil və bunun cəfəngiyyat olduğunu özləri hamıdan yaxşı başa düşürlər. Onu da, başa düşürlər ki, ABŞ yalnız öz mənafeyinə uyğun şəkildə siyasət yürüdür və hansı ölkə ilə tərəfdaşlıq onu maraqlandırırsa, həmin ölkə ilə də əlaqələrini genişləndirir. Yaxşı başa düşürlər ki, indi ABŞ Ermənistanla deyil, Azərbaycanla əlaqələrə və tərəfdaşlığa maraqlıdır. Bu isə, Azərbaycanın uğuru, nailiyyəti və ölkəmizin doğru siyasət yürütməsinin təzahürü olan növbəti qələbəsidir. Ermənistanın təşviş içində olması, məhz buna görədir və əbəs yerə deyil ki, ABŞ-Azərbaycan əlaqələri erməni cəmiyyətində təşvişlə izlənilir. Haqlı olaraq, İrəvan ABŞ-Azərbaycan əlaqələrinə görə təşviş icindədir və erməni cəmiyyəti, yaxşı bilir ki, hələ bundan sonra daha böyük təlaş içində olacaq. Çünki Azərbaycanın əlaqələri, tərəfdaşlıqları ölkəmizin apardığı doğru siyasət, nəticədə, əldə etdiyi nailiyyətlər, uğurlar hesabınadır və bundan sonra daha geniş tərəfdaşlıqların yaranması, ölkəmizin gücünün daha da möhkəmlənməsi günün reallığıdır.

***İnam HACIYEV***

# Ermənistanda kəndlilər etiraz aksiyasına başlayıb

***Bütün sahələrdə dərin böhranın hökm sürdüyü Ermənistanın kəndlərində problemlər mövcuddur. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Armavir vilayətinin Zartonk kəndinin sakinləri müddətsiz etirazlara başlayıblar. Aksiya iştirakçıları bildirirlər ki, problemləri bitib-tükənmir. İcra nümayəndəsi qardaşları ilə birlikdə kəndi talayıb xarabalığa çevirib. İkinci qrup əlili Arşak Ağasiyanın sözlərinə görə, əsas narazılıqları da elə icra nümayəndəsindəndir. "Biz əlillər dövlət tərəfindən ayrılan güzəştlərdən heç cür istifadə edə bilmirik.***



Müharibəyə gedib sağlamlığımı ondan ötrü itirmədim ki, torpağımı da icra nümayəndəsi əlimdən alsın. Kəndlilərin adına olan bütün torpaqlar özəlləşdirilib indi bizə icarəyə verirlər. Armavir vilayətinin başçısı gəlib bu məsələlərə aydınlıq gətirməsə, onda özümüz problemlərimizi həll edərik",- deyə aksiya iştirakçıları bildirirlər.

Etirazçılar kənddə klub, 300 yerlik bağçanın özəlləşdirilərək əyləncə mərkəzinə çevrildiyini deyirlər. Sakinlər bütün bu özbaşınalıqlara etiraz etdikcə, icra nümayəndəliyindən bildiriblər ki, sosial təyinatlı obyektləri hərrac vasitəsilə alıblar. 1990-cı illərin sonlarına kimi Zartonk kəndində ən iri zavodlardan biri hesab edilən şüşə-qablar zavodu fəaliyyət göstərib. Burada təxminən 500-ə yaxın işçi çalışırdı. İndi həmin zavodun quru divarları və bir də divarları qalıb. Əhali isə işsizdir.

*Artıq kifayət qədər sübuta yetirilib ki, sosial şəbəkələrdə “şirpələngə” dönüb, özlərini “siyasi mühacir”, “dissident”, “məzlum və əzilmiş xalqın mübariz nümayəndəsi” kimi təqdim edənlərin əsas məqsədləri qrant dilənçiliyi, eyni zamanda, həmin dilənçilikdən əldə edilən məbləğləri mənimsəməkdir. Əbəs deyil ki, bizlər artıq dəfələrlə görmüşük ki, Məhəmməd Mirzəli, Orduxan Teymurxan, Səid Nuri, Tural Sadıqlı və s. kimiləri bir-birlərini, hətta 100 avroya görə ən ağır təhqirlərə məruz qoyur və necə deyərlər, söyüşün birini “bir qəpikdən” söyürlər. Belə bir reallıq onların iç üzlərini daha da ifşa edir, o cümlədən, cəmiyyətdə yerlərinin nə qədər ucuz ünsürlər olduğunu isbatlayır.*

# Pendir mitinqi

## *Yaxud “mühacirlər”in qıcqırmış qatıq qoxusu*



### Gəda-güdalar yığnağı üçün təhqir etmək, ya da təhqir qazanmaq heç nədir

O da sirr deyil ki, Bakının mərkəzində icazəsiz mitinq keçirmək məqsədi daşıyan və erməni lobbisinin vəsaitləri hesabına təlimatlar alan həmin ünsürlər artıq bir neçə gündür ki, sözün əsl mənasında, bir-birlərini qırır, təhqir edir, ən alçaldıcı ifadələri səsləndirirlər. Söz yox ki, belə ünsürlər üçün şərəf və ləyaqətin olmaması faktı onların bir-birlərinə qarşı tətbiq etdikləri söyüşlərini də təsirsiz edir. Çünki şəxsi həyatlarında azərbaycanlı kişisinə layiq olmayan hərəkətləri ilə yadda qalan gəda-güdalar yığnağı üçün təhqir etmək, ya da təhqir qazanmaq heç nədir. Əgər “yarımçıq adam” statusu qazanmış S.Nurinin otellərdə qeyri-ənənəvi seks üsulları ilə məşğul olduğunu, M.Mirzəlinin də eyni motivdən intim həyat yaşamasını, habelə, “şərəfsiz” sözünü özünə söyüş kimi qəbul etmədiyini etiraf etməsini, O.Teymurxanın tualetlərdən, küçələrdən, zibil qutuları yanından canlı efirlərlə çıxmasını xatırlasaq, bunların, həqiqətən də, ucuz, səviyyəsiz, nadan və bədbəxt biriləri olduğunu əminliklə deyə bilərik. Onlar üçün əsas lazım olan puldur ki, indi də həmin pul üstündə növbəti dava-şavaya, qarşılıqlı təhqirlərə keçid ediblər.

### “Yarımçıq adam” Səid Nuri, şərəfsiz Məhəmməd Mirzəli və “boğazı karanla deşilmiş” Orduxan Teymurxan...

Söhbət isə, yuxarıda da qeyd etdiyimiz kimi, Bakıda icazəsiz mitinq keçirmək sifarişinin alınmasından gedir. O.Teymurxan S.Nuri və M.Mirzəlinin mitinq çağırışlarını ələ salaraq, onu “pendir mitinqi” adlandırıb. Bu isə, qarşı tərəflərin xoşlarına getməyib. Çünki Orduxan bu məsələdən qrant payını almayıb, həmin iki nəfər isə, onlara vəd edilən qrantları ala bilməyəcəkləri xofuna düşüblər. Ona görə də, başlayıblar Orduxanın fəaliyyətinə qarşı çıxmağa. Sosial şəbəkədə canlı yayımda olduqlarına baxmayaraq, “yarımçıq adam” Səidlə, şərəfsiz Məhəmməd “boğazı karanla deşilmiş” Orduxanın Hollandiyada zirehli jiletlə gəzdiyini deyərək, onu ələ salıblar. Guya Orduxan bununla Avropada göstərmək istəyir ki, “həyatına təhlükə”-filan varıymış...

### “Kitabları bağlanıb”, atalar demişkən, “bir daş altdan, bir daş da üstdən”

Beləliklə, Azərbaycanda qeyri-qanuni mitinqlərə insanlara çagırış edən S.Nurinin “Orduxan böyük zibil-zaddı?!”, M.Mirzəlinin isə, Avropada qrant üstündə oturmusunuz, bizim fəaliyyətimizi həmişə gözdən salırsınız, çünki “xain və paxılsınız...”, “dediklərimi beyninizə soxun”, ittihamları ilə çıxış etmələri bu gəda-güdaların gerçək “simalarını” ortaya qoydi.

Baş verənlər isə kifayət qədər sübut edir ki, artıq belələrinin “kitabları bağlanıb” və get-gedə, hətta öz tərəfdarları və izləyiciləri qarşısında maraqlarını itirməkdədirlər - atalarımız demişkən, bir daş altdan, bir daş da üstdən...

Ona görə də, olan-qalan qrant mərkəzlərini itirməməkdən ötrü sosial şəbəkələrdə çabalamağa, hətta buna görə bir-birlərini ən ağır təhqirlərə məruz qoymağa hazır olduqlarını da göstərirlər. Görünür, icazəsiz mitinqləri, həqiqətən, pendir mitinqinə çevrilir, üstəlik, didişib-qırışmalarından çıxan söz-söhbətlərindən də əməlli-başlı qıcqırmış qatıq iyi gəlməyə başlayır...

**Rövşən RƏSULOV**

# “Bakcell”dən gənclərin məşğulluğunun artırılmasına növbəti töhfə




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti “ASAN Kadr” Karyera mərkəzinin 2-ci Karyera sərgisində iştirak edib. Bakı Ali Neft Məktəbində keçirilmiş sərgidə, ümumilikdə 80-dən çox müəssisə təmsil olunub. Karyera sərgisinin əsas məqsədi ASAN könüllüsü olmuş, o cümlədən savadlı, bacarıqlı, təcrübəli və iş potensialı ilə fərqlənən gənclərin məşğulluq imkanlarını artırmaq, vətəndaşların işlə təmin olunmalarına dəstək göstərmək, habelə müəssisələrin mövcud iş vakansiyaları haqqında məlumat verməlləri üçün şərait yaratmaqdır.

Sərgi zamanı gənclərə Bakcell şirkətində mövcud olan vakansiya və təcrübə imkanları barədə məlumat verilib və potensial namizədlərlə müsahibələr keçirilib.

Ölkənin qeyri-neft sektorunun ən iri investorlarından olan Bakcell şirkəti gənclərin təhsilinin və karyerasının inkişafına mütəmadi olaraq dəstək göstərir.

Şirkət mütəmadi olaraq müxtəlif təhsil müəssisələri, müvafiq dövlət strukturları və digər təşkilatlar tərəfindən təşkil olunan karyera sərgilərində fəal iştirak edir. Müsahibədən uğurla keçən gənclər ölkənin ən böyük və ən innovativ şirkətlərindən birində iş və ya təcrübə imkanı qazanır.

## “Novruz bayramına qədər ölkə üzrə pensiyaların ödənilməsi təmin ediləcək”



Yanvarın 1-dən etibarən elektron pensiya təyinatına başlanılıb. Bugünədək artıq 5600-dən çox vətəndaşa doğum günündə elektron qaydada pensiya təyinatı edilib. Həmçinin mart ayının pensiyalarının qrafik üzrə verilməsinə də başlanılıb. Artıq 10-dan çox rayonda pensiyalar hesablara köçürülüb. Novruz bayramına qədər ölkə üzrə pensiyaların ödənilməsi təmin ediləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev kütləvi informasiya vasitələrinin nümayəndələrinə açıqlamasında deyib. Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması istiqamətində görülən tədbirlərdən danışan nazir bildirib ki, bu ilin iki ayı ərzində ölkədə əmək müqavilələrinin sayı 53 mindən çox artıb. Bunun da 40 mini özəl sektorun payına düşür.

# Peşə təhsilini bitirən məzunlara dərəcə veriləcək



Yüksək texniki peşə təhsilini bitirən məzunlara subbakalavr peşə-ixtisas dərəcəsi veriləcək. SİA-nın xəbərinə görə, bu barədə Milli Məclisin İnsan hüquqları komitəsinin iclasında müzakirəyə çıxarılan “Peşə təhsili haqqında” qanuna təklif edilən dəyişiklikdə öz əksini tapıb. Layihəyə əsasən, peşə təhsili müəssisələrində tam orta təhsil üzrə təhsilverənlərin sertifikatlaşdırılması, digər işçilərin isə attestasiyası keçiriləcək.

# Bağçaların özəlləşdirilməsinə icazə veriləcək

Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin özəlləşdirilməsinə icazə verilir. SİA-nın xəbərinə görə, bu barədə Milli Məclisin İnsan hüquqları komitəsinin iclasında müzakirəyə çıxarılan “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” qanuna dəyişiklikdə təklif olunur. Qüvvədə olan qanuna əsasən, indiyə qədər təhsil müəssisələrindən yalnız dövlət icbari ümumi orta təhsil müəssisələrinin özəlləşdirilməsi qadağan edilib. Dəyişikliyə görə, bundan sonra məktəbəqədər təhsil müəssisələri istisna olmaqla, dövlət təhsil müəssisələrinin özəlləşdirilməsi qadağan ediləcək. Başqa sözlə, dövlət icbari ümumi orta təhsil müəssisələri ilə bərabər, dövlət ali məktəbləri, orta ixtisas və peşə təhsili müəssisələrinin də özəlləşdirilməsi qadağan olunur.

# “Ural Hava Yolları” Samaradan Bakıya aviareyslərə başlayır




Rusiyanın “Ural Hava Yolları” aviaşirkəti aprelin 5-dən Samara-Bakı-Samara marşrutu ilə uçuşlara başlayır. AZƏRTAC aviaşirkətə istinadla xəbər verir ki, uçuşlar “Airbus A320” təyyarələri ilə həyata keçiriləcək. Bir istiqamət üzrə aviabiletin qiyməti isə 97 avrodur. Hazırda aviaşirkət Yekaterinburqdan Bakıya və Moskvadan Lənkərana uçuşlar həyata keçirir.

# Ulu Öndər Heydər Əliyevin insan hüquqlarının müdafiəsinə verdiyi əvəzsiz töhfələr

***Avropa təsisatlarına inteqrasiyası məqsədilə Prezident Heydər Əliyev 1996-cı il iyulun 8-də Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramını təsdiq etmiş, "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası"nın müddəaları nəzərə alınmaqla, yeni qanunlar hazırlanmışdır.***

Mahiyyət etibarilə hüquq islahatları qanunların və digər normativ-hüquqi aktların hazırlanması, hüquqi informasiya sisteminin genişləndirilməsi, məhkəmə və bütövlükdə, hüquq-mühafizə sisteminin islahatı, qanunların əhali arasında təbliği və öyrənilməsi kimi tədbirləri özündə ehtiva edir.

Azərbaycan xalqı əsrlər boyu milli azadlıq -hüququnu təmin etmək, müstəqil yaşamaq haqqına nail olmaq arzusu ilə yaşamışdır. XX əsrin əvvəllərində əldə olunmuş suverenliyin qorunub-saxlanması kimi tarixi vəzifə məlum səbəblər üzündən Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən gerçəkləşdirilə bilməmişdir. Müstəqilliyin təmin edilməsi və qorunub-saxlanmasının nə qədər çətin olduğunu dəfələrlə bəyan etmiş Ulu Öndər Heydər Əliyev ötən yüzilliyin sonunda Azərbaycan xalqının bu fundamental haqqını gerçəkliyə çevirdi.

Hər il xalqımız çoxəsrlik tarixinin ən parlaq səhifələrindən biri olan Dövlət Müstəqilliyi Gününü qeyd edərkən həmin keşməkeşli zamanda milyonlarla azərbaycanlının təməl hüququnu - müstəqil məmləkətdə yaşamaq, azad ölkənin vətəndaşı olmaq hüququnu təmin edən Ümummilli Liderin ruhu qarşısında baş əyir. Ancaq bu gün azadlıq və hüquq sözlərini bol-bol işlədən bəzi insanlar 1991-ci ildə belə bir fürsət yarandığı vaxt, Ulu Öndərin sözləri ilə desək, bundan, nəinki istifadə etməmişdilər, hətta istifadə etməkdən imtina etmişdilər.

1993-1995-ci illər Azərbaycan Respublikasının ən yeni tarixində ən ağrılı illər kimi yadda qalmışdır. Ölkəmizin daim inkişaf etdiyi indiki vaxtda hər bir azərbaycanlı tarixi müstəqillik arzusunun həmin illərdə ən çətin, bəlkə də artıq sonuncu dəfə sınaqdan çıxdığını tam dərk etməlidir. Bunun üçün, daha doğrusu, Ulu Öndərin dövlətçilik qarşısında xidmətlərini başa düşmək və müstəqilliyin bir də heç vaxt təhlükə qarşısında qalmasına yol verməmək üçün biz həmin tarixə ən həssas münasibət bəsləməliyik. 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilən Heydər Əliyev iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı və 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində, dövlət başçısı seçildi.

Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtdığı 15 İyun Qurtuluş Günü tariximizə Azərbaycan xalqının fəlakətlərdən xilas olmasının, hər cür qarşıdurmaya son qoyulmasının, separatçılıq meyillərinin aradan qaldırılmasının, müstəqil milli dövlətçiliyin qorunub-saxlanması və möhkəmləndirilməsinin başlanğıcı kimi daxil olmuşdur.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikası rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, müstəqil demokratik, hüquqi dövlət quruculuğu prosesi başlandı, 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, ictimai-siyasi sabitlik bərqərar edildi. Bir qədər irəli gedərək, xatırladaq ki, dövlətçiliyin qorunması və xarici siyasətin, eləcə də, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələrin milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə qurulması nəticəsində, Ulu Öndər demokratik-hüquqi dövlət quruculuğu yönündə ardıcıl siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaradılmasını təmin etdi. 1995-ci və 2000-ci illərdə çoxpartiyalılıq əsasında parlament seçkiləri keçirildi; Konstitusiya Məhkəməsi fəaliyyətə başladı; Azərbaycan Respublikasında ölüm cəzası, mətbuat üzərində senzura ləğv olundu; 1995-ci ilin mayında Əfvetmə İnstitutu bərpa edildi, minlərlə məhbus müxtəlif cəzalardan tam və ya qismən azad olundu; Azərbaycan Respublikası 1996-cı ilin iyunundan Avropa Şurasında "xüsusi qonaq" statusu aldı, 2001-ci il yanvarın 25-də isə qurumun tamhüquqlu üzvü oldu. Bütün bunların təməlində isə, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi dururdu.

Azərbaycan Respublikası dövlət müstəqilliyi əldə etdikdən sonra cəmiyyətin əsas prinsiplərini özündə əks etdirən Yeni Konstitusiyanın - Əsas Qanunun qəbul olunmasına zərurət yaranmışdı. Lakin AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə bu məsələ sanki yada düşmür, respublikamız keçmiş SSRİ-nin qanunları ilə idarə olunurdu. Suveren dövlətin ilk Konstitusiyasının yaradıcısı Heydər Əliyev bu məsələyə toxunaraq demişdir: "Oktyabrın 18-də müstəqillik haqqında Konstitusiya Aktı qəbul edildi. Lakin Azərbaycan xalqının iradəsinə zidd olaraq, o zaman Azərbaycan Respublikasının rəhbərliyi müstəqilliyə getmək istəmirdi. Güman edirəm, o vaxt Azərbaycan rəhbərliyində bəziləri ümid bəsləyirdilər ki, Sovet İttifaqı hələ yaşayacaqdır. Çünki 1991-ci ilin martında Azərbaycan rəhbərliyi bir referendum keçirib, qərar qəbul etdi ki, Sovet İttifaqı saxlanmalıdır. Onlar bu siyasətdən, yəni bu istiqamətdən, görünür, əl çəkə bilmirdilər. Avqustun 30-da müstəqillik haqqında bəyanat qəbul ediləndən sonra yalnız oktyabrın 18-də dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı da referendumdan keçməli idi. Bu, təbiidir. Çünki 1991-ci ilin martında Sovet İttifaqının saxlanması haqqında referendum təşkil olunmuşdu. Əgər oktyabrın 18-də Konstitusiya Aktı qəbul olunmuşdusa, bir aydan sonra - noyabrın 18-də referendum keçirilə bilərdi. Çünki bir ay müddətində elan edib, referendum keçirmək olar. Ancaq nədənsə, bu referendumu noyabrın 18-nə də yox, dekabrın 18-nə də yox, dekabrın 29-na salmışdılar və referendum həmin gün keçirildi".

Yeni Konstitusiyanın yaradılması ideyasının irəli sürülməsində, onun layihəsinin hazırlanması və qəbul olunmasında dünya şöhrətli siyasi və ictimai, dövlət xadimi Heydər Əliyevin müstəsna rolu və əməyi olmuşdur. Məhz buna görə də, haqlı olaraq, Azərbaycan Respublikasının Konstitusiyasını xalq arasında "Heydər Əliyev Konstitusiyası" adlandırırlar.

Umummilli Liderin rəhbərliyi ilə konstitusiyanın hazırlanması ilə əlaqədar komissiya təşkil olundu. Komissiyanın əsas vəzifəsi müstəqil Azərbaycan Respublikasının Konstitusiyasını və parlamentinin səlahiyyətlərinin sona çatması ilə əlaqədar Milli Məclisə seçkilər haqqında qanun layihəsini hazırlamaq idi. Komissiya seçki qanununun layihəsini hazırlayıb Milli Məclisin müzakirəsinə təqdim etdi. Milli Məclis qanun layihəsini müzakirə edərək, qəbul etdi və müstəqil Azərbaycan Respublikasının birinci parlamentinə seçkilərin günü təyin olundu.

Ümummilli Lider Heydər Əliyev komissiyanın iclasındakı tarixi çıxışında demişdir: "İndiyə qədər Azərbaycan Respublikası 1978-ci ildə qəbul olunmuş Konstitusiya ilə yaşayır, işləyir. Biz müstəqil Azərbaycan Respublikasının, demək olar, ilk Konstitusiyasını yaradırıq. Çünki 1919-cu ildə qəbul olunmuş müstəqillik haqqında Akt, - biz onu konstitusiya xarakterli bir sənəd kimi qəbul edirik, konstitusiya olmayıbdır. Bizim Yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə, Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub-saxlamaq və yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və mən, bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik- hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq. Demokratik-hüquqi, sivilizasiyalı dövlət quruculuğu proseslərini və bunu təmin etmək üçün bütün şərtləri, müddəaları konstitusiya özündə əks etdirməlidir. Demokratiya prinsipləri geniş məfhumdur. Əgər bu, bir tərəfdən, insanların, vətəndaşların hüquqlarının təmin edilməsi prinsipləridirsə, ikinci tərəfdən, dövlətçiliyin qurulmasını, dövlət quruculuğu prosesinin aparılmasını, inkişaf etdirilməsini və Azərbaycanda həm dövlətin, həm xalqın, həm də hər bir vətəndaşın hüquqlarının qorunmasına təminat verə bilən dövlətin qurulub yaranmasını təmin edən prinsiplər olmalıdır. Konstitusiyada dövlətin, Azərbaycanın bu ağır keçid dövründə, bir də qeyd edirəm, vətəndaşların hüquqlarını qorumaq, dövlətçiliyi qorumaq üçün təminatlar olmalıdır. Bu iki il müddətində, biz sizinlə birlikdə, Azərbaycanın dövlətçiliyini dağıtmaq və pozmaq cəhdlərinin dəfələrlə şahidi olmuşuq. Bax, buna görə də, bizim bu gün və gələcəkdə qəbul edəcəyimiz qanunlar və xüsusən, əsas qanunumuz - konstitusiya gərək elə bir konstitusiya olsun ki, bir tərəfdən, insanların hüquqlarını qorusun, insan azadlıqlarını, demokratiyanı təmin etsin, siyasi plüralizmi təmin etsin, mətbuat, söz, din, dil azadlığını təmin etsin, ikinci tərəfdən isə dövləti, cəmiyyəti idarə etmək üçün təsisatların yaranmasını təmin etsin ki, bu cür hallara yol verilməsin. Ona görə də, güman edirəm, biz elə bir konstitusiya yaradacağıq ki, bu konstitusiya Azərbaycan Respublikəsının, nəinki qısa müddətdə, həm də uzun müddətdə müstəqillik yolu ilə getməsini təmin edəcəkdir, Azərbaycan Respublikasında demokratik-hüquqi dövlətin qurulmasını təmin edəcəkdir və ölkəmizdə olan bütün vətəndaşların hüquq və azadlıqlarını təmin edəcəkdir".

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının referendum yolu ilə qəbulu müasir milli tariximizin mötəbər hadisələrindən biri olmaqla, Ümummilli Liderin Azərbaycan milli dövlətçiliyi qarşısındakı ən mühüm xidmətlərindən sayılır. Məhz elə buna görə də, əminliklə deyə bilərik ki, 1993-cü ildən sonrakı dövr Azərbaycan Respublikası tarixinə hüquqi dövlət quruculuğu, insan hüquqları və azadlıqlarının inkişaf tarixində dönüş mərhələsi kimi qiymətləndirilir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Özgələrinin əlaltısı...

## *Sevinc Osmanqızı da istifadə olunanlardandır*

***Bu gün onun-bunun yalağı olan, adını "siyasi mühacir" qoyan mənəviyyat deyilən məfhumdan uzaq olan, qranta hər şeylərini satanlar parazitlərdir və bu murdar parazitlər getdikcə artır. Çünki istifadə olunub, yararsız olurlar. Belələrindən biri də Sevinc Osmanqızıdır.***



Bu, o S.Osmanqızıdır ki, doğma Vətənini, dostlarını, bir zamanlar ona dəstək olanları, hətta sığındığı Amerikanı Mayamidəki evə, mal varlığına ...dəyişə bilir. Bu, o S.Osmanqızıdır ki, Xocalı faciəsində ermənilərə bəraət qazandırmaqla, bir daha iç üzünü nümayiş etdirib. Nə üçün Xocalı soyqırımı ilə bağlı, erməni vəhşiliyini sübut edən faktları təfsilatı ilə paylaşıb, öz "amerikalı dostlarına", eləcə də, izləyicilərinə həqiqəti aşılamır? Bütün dünya bilir ki, bu qırğını ermənilər törədiblər, elə isə bu olayda siyasi çalar axtarmağın mənası nədir? S.Osmanqızı o dərəcədə mənəviyyatsız və satqındır ki, hətta "20 Yanvar, 20 noyabr, Xocalı və xalqımızın başına gətirilən digər faciələrdə olanları bilmək haqqımız və borcumuz deyil" deyir. Doğurdan da, S.Osmanqızını, vəhşi, faşist adlandırsaq da, ondan da ağır bir söz axtarışına çıxdım. Tapdığım söz insan yox, İBLİS oldu. Bu iblis Xocalı faciəsi ilə bağlı "olanları bilmək borcumuz və haqqımızdır" deyir. Ancaq hətta Sarkisyan belə etiraf edir ki, Xocalıda insanları bilə-bilə qırıblar. Çünki bu adam və onun kimilər-orduxanlar, fəxrəddinlər, vidadilər, yunuslar, xədicələr və sırası, mənşəyi bilinməyən ünsürlər erməni təəssübkeşidirlər, vəssalam. Son günlər Avropada oturub, gecə-gündüz Azərbaycan əleyhinə aksiyalar təşkil edən bu ünsürlər ölkəsinin və hökumətin əleyhinə fikirlərlə daha çox qrant almaq davası aparmaqdadırlar.

### Belə tərbiyəsizdən ailə də imtina edib

"Məni Sevinc Osman qızı Mirzəyeva ilə artıq heç nə bağlamır" deyən S.Mirzəyevanın bacısı Lalə Osmanqızı bildirib: "Onun kimlərinsə əlində siyasi oyuncaq olmasına üzülürəm. Bir atanın, bir ananın övladlarıyıq." ABŞ-da yaşadıqdan sonra Sevincin siyasi mövqeyinin kəskin dəyişməsi onda təəssüf yaradıb: "Mənim dəfələrlə və təkidlə ona sağlam siyasi mövqe nümayiş etdirmək üçün təsir etməyimə baxmayaraq, o öz fikrindən əl çəkmədi. Mən dəfələrlə elektron media vasitəsilə Sevincin doğma vətənim Azərbaycan, onun siyasi rəhbərliyi barədə yazdığı fikirlərə tənqidi münasibətimi bildirmişəm, ailəmizin tərbiyəsinə yaraşmayan mövqedən əl çəkməsini böyük bacı kimi də tələb etmişəm. Onun möhtərəm Prezidentimiz İlham Əliyev və çox hörmətli Birinci vitse-prezident, xanım Mehriban Əliyeva haqqında yazdığı fikirləri ailəlikcə qətiyyətlə rədd etmişik. Onun bu məsuliyyətsiz mövqeyini siyasi səbatsızlıq hesab edirəm və onun kimlərinsə əlində siyasi oyuncaq olmasına üzülürəm" deyə L.Osmanqızı bildirib.

Bəli, S.Osmanqızı kimilər beynəlxalq siyasi qüvvələr tərəfindən geniş maliyyə vəsaiti xərcləyərək, onlardan Azərbaycana qarşı istifadə edirlər. Siyasi qüvvələr Azərbaycana qarşı qarayaxma kampaniyasına fasilə verən kimi, bu parazitlər arasında bir-birinə qarşı ittihamlar başlanır. Əslində, bu proses onların əsl mahiyyətini və kim olduqlarını üzə çıxarır. Bu parazitlər anlamalıdırlar ki, Azərbaycanda onlara yer yoxdur. Onların əsl mahiyyəti alət olmaqdır və onlar öz istifadə müddətlərini çoxdan bitiriblər.

***Rəfiqə HÜSEYNOVA***

# "Nar" 2018-ci ilin yekunları ilə bağlı hesabatını açıqladı




Azərbaycanın ən gənc mobil operatoru "Nar", 12 il ərzində əldə etdiyi nailiyyətlər və 2018-ci ilin yekunları ilə bağlı hesabat açıqlayıb. Media nümayəndələrinin iştirakı ilə keçirilmiş mətbuat konfransmda çıxış edən "Azerfon"- un baş icraçı direktoru Qunnar Panke bildirib ki, mobil operator ötən il ərzində bir çox göstəricilər üzrə yüksək nailiyyətlər əldə edib.

Baza stansiyalarının sayını sürətlə artıran və hazırda ölkədə ən geniş şəbəkələrindən birinə malik olan "Nar" 2018-ci ildə 170 3G, 800-dən çox 4G baza stansiyası quraşdırıb. Bununla da 2018-ci il üçün planlaşdırılan 3G baza stansiyalarmın sayı 2600-ü keçib, 4G baza stansiyalarınm sayı isə 1700-ün üzərindədir. Aparılan şəbəkə işlərinin nəticəsi olaraq, 47 bölgə "Nar" 4G şəbəkəsi ilə əhatə olunub. "Nar" 4G baza stansiyalannın təqdim etdiyi yüksəkkeyfıyyətli mobil internet xidməti nəticəsində 4G internetinin trafik həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 68 % artıb. Mobil operatorun 4G istifadəçilərinin sayı 150% artaraq, 500 min nəfəri ötüb.

"Nar"-ın göstərdiyi yüksəkkeyfıyyətli xidmət və sərfəli qiymət sayəsində ötən ilin müvafiq dövrü ilə müqayisədə aktiv abunəçi bazası 13% artaraq, 2,2 milyondan çox olub. Abunəçi bazasının 56%-i paytaxt Bakının, 44%-i isə regionlann payına düşür. "Nar" abunəçiləri arasında smartfon iştifadəçilərinin sayı son 1 il ərzində 27% artıb. Ümumilikdə, mobil operatorun abunəçiləri arasında smartfon iştifadəçilərinin 38%-i regionların, 62%-i isə Bakının payına düşür.

"Azerfon"-un baş icraçı direktoru Qunnar Panke 2018-ci il ərzində "Nar"-m əldə etdiyi nailiyyətləri və 2018-ci ilin yekunlannı yüksək qiymətləndirib: "Nar" olaraq əsas hədəfimiz paytaxtla yanaşı, regionlarımızda da şəbəkəmizi daha da gücləndirməkdir. Bu il 700-dən artıq 4G baza stansiyası quraşdırmağı hədəfləmişik. Bütün ölkə boyunca şəbəkəmizi gücləndirməklə, abunəçilərimizin tələblərinə uyğun məhsullar təklif etməklə bazarda payımızı 22% artırmağa nail olmuşuq".

"Nar" ötən il ərzində satış üzrə də yüksək nailiyyətlər əldə edib. 2017-ci il ilə müqayisədə satış üzrə 17% artım müşahidə oiunub. Mobil operator pərakəndə satış üzrə 22%, səyyar satış komanadasının yaradılması ilə ucqar kənd və ərazilərdə 171% artıma nail olub. Biznes tərəfdaşlarınm sayını ildən-ilə sürətlə artıran mobil operator il ərzində 570-dən çox yeni korporativ şirkot cəlb edib.

"Nar"-ın müştərilərə göstərdiyi yüksəkkeyfiyyətli xidmət sayəsində müştəri məmnuniyyətində sürətli artım müşahidə olunub. Müstəqil araşdırma şirkətləri tərəfindən apanlmış bir neçə sorğunun nəticələrinə əsasən, son 1 il ərzində "Nar" müştəri loyallığı indeksi üzrə 45%'artım qeydə alınıb. Bundan başqa, son 1 il ərzində mobil internet məmnuniyyət göstəricisi üzrə 16% yüksəliş qeydə alınıb. Abunəçilərin fıkrinə əsasən, "Nar" mobil internet sahəsində liderdir.

2018-ci il ərzində mobil operatorun təqdim etdiyi məhsullarla - "Nar TV", "Nar MiFi", "Nar Wi-Fi" ilə abunəçilər innovativ xidmətlərdən yararianmaqla yanaşı, sərfəli qiymətə yüksəksürətli internetə çıxış əldə edib, xaricə səyahətə çıxan abunəçilər üçün yeni sərfəli rominq paketləri təqdim edib. Bundan başqa mobil operatorun təqdim etdiyi "Full" paketləri ilə abunəçilər ay ərzində topladıqları bonusları növbəti aylara keçirir və qalıq bonusların dəyişdirilməsi funksiyasından - "Çevir" xidmətindən yararlana bilərlər.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekomunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib.



Təhmasib Novruzov

# *Çay gəlməmiş çırmanıb, yay gəlməmiş qızanlar...*

***Bizim xalqın iliyinin içinə qədər nüfuz edib, orda gizlənib qalan bəzi-bəzi "dəyər"ləri açıb ortaya tökməkdə ölməz şairimiz Mirzə Ələkbər Sabirin əvəzi yoxdur. Rəhmətlikdə bu qabiliyyət, o qədər güclü olub ki, özünün də iliyindən gələn ağrılarla Allahın bəxş elədiyi istedad sayəsində həmin "dəyər"ləri eliyib xalqın malı. Bəlkə də, elə buna görədir ki, dünyanın heç bir dilinə Sabir satrik təfəkkürünün incəliklərini olduğu kimi tərcümə etmək və bu böyük klassikimizi dünyaya olduğu kimi tanıtmaq indiyə qədər mümkün olmamışdır.***

Şairin belə deyimlərindən biri də, bizim indiki gözəl-göyçək, cibi uğrunda millətini də, dövlətini də hərrac bazarına çıxarmağa hazır olan bəzi dağıdıcı xislətli müxalifət yetkililərinin lap iliyindən xəbər verir. O deyimi, yəni misraları xatırladaq, sonra açmasına keçərik. Ustad babamız deyirdi: "Çırmanırıq keçməyə çay gəlməmiş, Başlayırıq qızmağa yay gəlməmiş!" Əcəba, bu misralarda ustad kimləri nəzərdə tuturdu? O dövrdə, yəni şairin yaşadığı XX əsrin əvvəllərində millətimizin bəzi-bəzi sonunu düşünmədən addım atan kimsələrini görüb, bu misraları qələmə alıbsa, elə indiki zamanımızda da beləlrəri var və həm də sayları bir qədər də artıb. Elə ona görə də, ədəbiyyatşünaslarımız M.Ə.Sabiri bütün dövrlərin şairi adlandırır və onun əsərlərinin bütün dövrlər üçün aktual olduğunu deyirlər. Xülasə, məqsədim bu böyük düha sahibini tərifləmək deyil. Məsələ burasındadır ki, bizim indiki zəmanəmizdə bəzi-bəzi müxalifət adlanan siyasi dəllallarımız var ki, onlar gerçəkdən ustadın satiralarının qəhrəmanlarının eyniləridir ki, durublar. Məsələn, bir neçə gün öncə, Səid Nuri adlanan bir əxlaqsız məxluqun Kolumbiyadan göndərdiyi mesajları sosial şəbəkələrdə yayıldı. Noolar, demokratiyadı, kim nə istiyir deyir də, yazır da, heç kəs də onlara gözlərinin üstündə qaşlarının da var olduğunu xatırlatmır. Əksər sosial şəbəkə istifadəçiləri bu bədbəxtin martın 19-dakı mitinqi Kolumbiyadan hazırlayacağı (?) və idarə edəcəyi barədə sərsəmləmələri, bəzi-bəzi müxalif yönlü sosial şəbəkə istifadəçilərini necə feyziyab edibsə, az qala, aləmə car çəkirlər ki, bu Novruzu yeni hakimiyyətlə (???) qarşılayacaqlar. Ozü də bunun ideoloqu və təşkilatçısı S.Nuri deyilən birisidir ki, onun adı gələndə xaricdə yaşayan çox həmvətənlərimiz az qalırlar azərbaycanlı, yəni Səidin mənsub oduğunu iddia etdiyi millətin nümayəndəsi olduğunu dansınlar. Niyəsi məlumdur. Onun bir vaxtlar yayılan o biabırçı video-görüntülərini millət hələ də unutmayıb. İndi bu gədanın "çay gəlməmiş çırmanmasına, yay gəlməmiş qızmasına" bizim bəzi müxaliflərimizin də züy tutması, onu deməyə əsas verir ki, içimizdə hələ də Sabirin qəhrəmanlarının sayı xeylidir və bunların belə-belə hərəkətlərini gərəkdir ki, saf-çürük edib, millətimizin diqqətinə çatdıraq. Əvvəla, S.Nuri deyilən ikiayaqlının hansısa bir amala, əqidəyə qulluq etmədiyi hər kəsə məlumdur. Çünki holland sindromlu birisinin əqidəsindən, amalından danışmaq gülünc olardı. İkincisi, bu gədə nə vaxt Xomeyni, yaxud "ETO" oldu ki, birdən-birə atıldı ortaya və dedi ki, mən ölkədə inqilab edəcəyəm? Allah amandı, bu anti-Azərbaycan qüvvələr görün nə günə qalıblar ki, üstümüzə Səidi göndərirlər. Səid oturub Kolumbiyada, orda narkotiklərin ən tez ağlı başdan çıxaranlarından bir-iki qullaf vurub, bağırır ki, martın 19-da "məsələ həll ediləcək". Burdakı züytutanlar da qoşulub ona, veriblər səs-səsə ki, hazır olun, biz (yəni səidçilər) gəlirik. Özü də Axır Çərşənbə günü, ilin ən təntənəli bayram günü gələcəklərini deyirlər. "Çay gəlməmiş çırmananlar" da, "yay gəlməmiş qızanlar" da başlayıblar əl altından adamlara vəzifə vədləri verməyə. Deyilənə görə, bundan da istifadə edib əməlli-başlı pul qazananlar da var. Qazansınlar, bazarlarına bərəkət, çünki Krılovun təbirincə desək, olmasaydı Əli kimi axmaqlar, ac qalardı Səid kimi yaltaqlar!

# Hüquqi dövlət insan haqlarının ən ədalətli müdafiəçisidir

***Hüquqi dövlət anlayışı özündə konstitusion əsaslı demokratik dövlət anlayışında mövcud olan əlamətləri birləşdirir. Lakin hüquqi dövlətin özünəməxsus əlamətlərinin üzərində dayansaq, hüquqi dövlət haqqında daha geniş və daha aydın təsəvvür yaratmış olarıq. Bu prinsiplər, əsasən, aşağıdakılardır:***

- hüququn aliliyi;
- hakimiyyətin bölünməsi;
- hamının qanun qarşısında bərabərliyi;
- hüquq və azadlıqların üstünlüyü;
- insan və vətəndaş hüquqları və azadlıqlarının real təminatı;
- qarşılıqlı məsuliyyət, yəni şəxsin dövlət qarşısında və dövlətin şəxs qarşısında məsuliyyəti;
- məhkəmə hakimiyyətinin müstəqilliyi.

İnsan hüquqları və azadlıqlarının təmin edilməsi, hüquqi-demokratik və dünyəvi dövlət yaradılması, vətəndaş cəmiyyətinin qurulması həmişə bəşəriyyəti düşündürən problemlərdən olmuşdur. Tarixə nəzər salsaq, hələ Qədim Roma dövründə qanunun aliliyinin təmin edilməsi ilə yanaşı, hüquqi dövlətin digər mühüm əlaməti olan hakimiyyətin bölünməsi prinsipinin rüşeyminə rast gələrik. Həmin dövrün mütəfəkkirləri insanların qanun qarşısında bərabərliyini və şəxsiyyətin azadlıqlarını və ictimai həyatın hüquqi cəhətdən tənzimlənməsini tələb edirdilər.

Hüquqi dövlət bir ideya, elm, nəzəriyyə, siyasi konsepsiya və praktika kimi bəşəriyyətin azadlıq və ədalət uğrunda mübarizəsi nəticəsində əldə etdiyi nailiyyətlərin ən mühümüdür. Məhz hüquqi dövlət şəraitində əsas insan və vətəndaş hüquqları və azadlıqları, hamının qanun və məhkəmə qarşısında bərabərliyi, vətəndaş cəmiyyətinin bərqərar olunması təmin edilə bilər. Hazırda qabaqcıl ölkələrdə artıq dövlətin tarixi tiplərindən daha biri - sosial dövlət quruculuğu mərhələsi əsas mövzudur.

Ölkədə hüquq islahatlarının ardıcıl və davamlı tərzdə həyata keçirilməsi məqsədilə Ümummilli Lider Heydər Əliyevin 1996-cı il 21 fevral tarixli Sərəncamı ilə Hüquq İslahatları Komissiyası yaradılmışdır. Həmin komissiyanın, beynəlxalq ekspertlərin iştirakı ilə hazırladığı, Avropa standartlarına uyğun bütöv bir qanunvericilik sisteminin - Cinayət Məcəlləsinin, Cinayət-Prosessual Məcəllənin, Mülki-Prosessual Məcəllənin, "Prokurorluq haqqında", "Vəkillik haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", eləcə də "Notariat haqqında", "Bələdiyyələrin seçkiləri haqqında" və digər qanunların qəbul edilməsi ilə milli qanunvericiliyin köklü şəkildə yeniləşdirilməsinə və müasirləşdirilməsinə nail olunmuşdur. Bu gün "islahatlar" ən çox işlənən sözlərdəndir və onun mahiyyəti, prinsipləri, meyarları, qabaqcıl təcrübənin resepsiyası (qəbulu və ondan bəhrələnmə), islahatların infrastrukturu, subyekti və obyekti və s. xüsusiyyətlərinin mənası da bəzən bu çoxluğun arxasında kölgədə qalır. Buna görə də, Ümummilli Liderin hüquq islahatları strategiyasından danışanda, bu prosesin Azərbaycan Respublikasında özünəməxsus cəhətlərinə nəzər salmaq çox önəmlidir. "Hüquq islahatları" anlayışı bir çox mənalarda işlənə bilər. Bəzən mövcud qanunvericiliyə edilən bir neçə əlavə və dəyişiklik də islahatlar mənasını verə bilər. Hüquq İslahatları Komissiyasının yaradılması Ulu Öndərin nəzərdə tutduğu hüquqi dövlət quruculuğu istiqamətində görüləcək işlərin miqyas və sanbalının nə qədər ciddi və geniş olduğunu, əsaslı konsepsiyaya söykəndiyini göstərirdi. Burada həmin fəaliyyətin aşağıdakı əsas cəhətlərini qısaca xatırlatmaq yerinə düşərdi:

- müstəqillik tarixımizin torpaqlarımızın işğalı, ərazi bütövlüyümüzün pozulması ilə paralel şəkildə başlanması bütün səviyyələrdə xalqımızın və beynəlxalq hüququn pozulmuş fundamental prinsiplərinin bərpasının tələb olunması mövqeyindən çıxış etmək həm daxili qanunvenciliyin, həm də beynəlxalq hüquq məkanına inteqrasiyanın ana xəttini təşkil etmişdir;
- ölkəmizdə hüquq islahatları qabaqcıl dünyanın demokratik hüquq məkanına inteqrasiya xəttini bəyan edən milli inkişaf strategiyasının ayrılmaz tərkib hissəsi olmuşdur;
- Azərbaycan Respublikasında, bütün sahələrdə olduğu kimi, hüquqi dövlət quruculuğunda da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə görülən işlərin ən mühüm xüsusiyyətindən biri islahatlara "yuxarıdan təşəbbüslə" təkan verilməsi, dövlət başçısının siyasi iradəsindən qaynaqlanması olmuşdur. İslahatların ideoloqu, təşəbbüskarı, aparıcı qüvvəsi və subyekti kimi Ulu Öndərin, onun başçılıq etdiyi siyasi elitanın çıxış etməsi olmuşdur. Bu, ölkə rəhbərinin missiyası, irəli sürdüyü siyasi xətt idi. Həm də, o demək idi ki, islahatlar prosesinin uğuru və uğursuzluğu üçün ən böyük məsuliyyəti də məhz dövlət başçısı öz üzərinə götürmüşdü.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikası əsl dövlət müstəqüliyini əldə etməklə yanaşı, insan hüquqlarının təmini, inkişaf etdirilməsi, qorunması sahəsində mühüm nailiyyətlər qazandı. Məhz onun qayıdışı ilə ölkəmizdə hüquqi dövlət quruculuğuna başlandı, söz, fikir və mətbuat azadlığı etibarlı şəkildə təmin edildi, insanların sərbəst toplaşmalarına, öz fikirlərini azad ifadə etmələrinə şərait yaradıldı, digər demokratik prinsiplərin cəmiyyətdə təşəkkül tapması dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi, bu sahədə demokratik prinsiplərə tam cavab verən qanunvericilik bazası yaradıldı.

Söz və fikir azadlığının təmin edilməsini 1995-ci ildə qəbul edilən konstitusiya hüquqi baxımdan təsdiqlədi, bir sıra normaları və beynəlxalq öhdəlikləri qabaqlayan əsas hüquqlar və azadlıqlar təsbit olundu.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul etdiyi Birinci Konstitusiya milli dövlətçilik tarixində həm bütün qabaqcıl demokratik ölkələrin qanunvericiliyində təsbit olunan, həm də beynəlxalq hüquq və normalarda nəzərdə tutulan insan hüquq və azadlıqlarının geniş əhatəsini özündə əks etdirən ilk hüquqi sənəd olmuşdur. O vaxtadək tariximizdə hüquqi dövlətin və qanunun aliliyinin prioritetliyi demokratik ənənələr olmamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 48 maddəsinin və yaxud üçdə birinin sırf insan hüquq və azadlıqları ilə bağlı olması Ümummilli Liderin yüksək daxili demokratizmini və insanpərvərliyini bir daha təsdiqləyir. Konstitusiyada əksini tapmış strateji məqsədlər, ilk növbədə, hüquq islahatlarının və insan hüquqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri etmişdir.

Əsas Qanunun birinci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

Azərbaycan Respublikası BMT-yə üzv olduqdan sonra dünya birliyinin tamhüquqlu subyekti kimi 120-dən artıq beynəlxalq Konvensiyaya, o cümlədən, 1996-cı ildə BMT-nin "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı" Konvensiyasına qoşuldu. Bununla yanaşı, Ulu Öndər Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı ilə ölkəmizdə senzuranın birdəfəlik ləğvi milli mətbuatımızın tarixində ən mühüm hadisələrdən biri olmaqla yanaşı, demokratik dövlət quruculuğu istiqamətində ən vacib hadisələrdən birinə çevrildi. Təsadüfi deyil ki, azad sözün təmin olunmasında tutduğu mövqeyə və xidmətlərinə görə Ulu Öndər 2001-ci ildə "Jurnalistlərin dostu" mükafatına layiq görüldü. 1998-ci il fevralın 10-da ölkəmizdə ölüm hökmünün ləğv edilməsi ilə Azərbaycan, bütövlükdə, Şərqdə belə bir qətiyyətli qərar verən ilk dövlət oldu. Yüksək insanpərvərliyin əyani təcəssümü olan bu qərar Azərbaycan Respublikasında insan hüquqlarına prioritet əhəmiyyət verildiyini göstərməklə yanaşı, ölkəmizin Avropa Şurasına tamhüquqlu üzvlüyünün reallaşmasına da əsaslı töhfə oldu. 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv qəbul edilən Azərbaycan Respublikası demokratik dövlətlər sırasında özünə layiq yer tutduğunu bir daha sübuta yetirərək, milli qanunvericiliyin Avropa standartları səviyyəsinə yüksəldilməsi istiqamətində fəal işlər gördü.

Konstitusiyada təsbit olunmuş insan və vətəndaş hüquqlarının daha dolğun, hərtərəfli təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 1998-ci il 22 fevral tarixli Fərmanı ölkəmizin dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə və demokratiyanın inkişaf etdirilməsinə geniş imkanlar yaratdı, insan hüquqları sahəsində görüləcək işlərin istiqamətləri və konsepsiyasını müəyyən edərək, onu dövlət siyasəti səviyyəsinə qaldırdı.

Bu Fərmandan irəli gələn məqsəd və vəzifələri nəzərə alaraq, Azərbaycan Respublikası konkret inkişaf mərhələsinə uyğun olaraq, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə Prezident 1998-ci il 18 iyun tarixli Sərəncamla "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı təsdiq etdi. Dövlət Proqramında insan hüquqları üzrə müvəkkil təsisatının yaradılması, Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, insar hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi və s. mühüm məsələlər nəzərdə tutulmuşdur. Ölüm hökmünün ləğvi ilə ölkəmiz mülki və siyasi hüquqlar haqqında beynəlxalq Paktin 2-ci Protokoluna qoşuldu. Azərbaycan Respublikası BMT-nin İnsan Hüquqlarının Qorunmasına dair Bəyannaməsinə və digər Konvensiyalara da qoşulmaqla, insan hüquqları sahəsində beynəlxalq miqyasda təsbit olunmuş prinsiplərə sadiqliyini nümayiş etdirdi.

İnsan hüquqları və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən hüquq islahatlarının məntiqi davamı kimi, 2002-ci il dekabrın 24-də qəbul edilən "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi" haqqında Konstitusiya Qanunu əhatə etdiyi məsələlərin dairəsinə görə mühüm yer tutur. Hər bir ölkədə insan hüquqları milli normalara əsasən müdafiə olunur və pozulmuş hüquqların bərpası üçün ən səmərəli mexanizmlər dövlətdaxili mexanizmlərdir. Milli normalar insan hüquqlarının tənzimlənməsində daha çevik mexanizmə malikdir. Beynəlxalq normaların əhəmiyyəti isə, ondadır ki, bu normalar insan hüquq və azadlıqlarına dair minimum standartları müəyyən edir. Beynəlxalq normalara tərəfdar çıxmış dövlət öz milli normalarında bu sənədlərdə əks olunan hüquq və azadlıqlardan daha üstün hüquq və azadlıqlar nəzərdə tuta bilər. Bu baxımdan, Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə həyata keçirilən hüquq islahatları və məhkəmə orqanlarının təkmilləşdirilməsi xatırlatdığımız prinsiplər üçün hüquqi bazaya çevrilmişdir.

Hər bir insanın həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan Respublikası dövləti insan hüquqları və azadlıqları sahəsində 220 beynəlxalq Konvensiyaya və Sazişə qoşulmuşdur.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Barmaq izi skanerinə malik bank kartı hazırlanıb




Rəqəmli təhlükəsizlik sahəsində fəaliyyət göstərən Niderlandın "Gemalto" şirkəti daxili barmaq izi skanerinin köməyi ilə ödəniş etməyə imkan verəcək debet kartı hazırlayır. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bu futuristik ödəniş texnologiyası növbəti ay real şəraitdə sınaqdan keçiriləcək. Britaniyanın "Natwest" bankının öz müştəriləri üçün çıxardığı 200 sınaq kartının köməyi ilə PIN kod daxil etmədən təmassız NFC ödənişləri həyata keçirmək mümkün olacaq. "Gemalto" şirkətinin nümayəndələri iddia edirlər ki, barmaq izi ilə bağlı məlumatlar yalnız kartda saxlanılır. Hakerlər həmin informasiyanı konkret bankın məlumat bazasından oğurlamaq imkanına malik olmayacaq.

## Çində yanacaqla işləyən avtomobillərin satışı qadağan ediləcək




Çinin cənubundakı Xaynan adasında 2030-cu ildə ənənəvi yanacaq növləri ilə (benzin, dizel, maye qaz) işləyən avtomobillərin satışı dayandırılacaq. AZƏRTAC xəbər verir ki, yerli hökumət bu addımla Çinin turizm bölgəsi olan adanı "ekoloji nümunəvi zona"ya çevirmək istəyir.

Xaynan Çində 2017-ci ildə ənənəvi yanacaqla işləyən avtomobillərin satışının qadağan edilməsi ilə bağlı elan edilən planı yerinə yetirən ilk vilayət olacaq. Çin hökuməti bu planla həm ətraf mühitin qorunmasını, həm də idxal neftdən asılılığı azaltmağı hədəfləyib.

Qeyd edək ki, Çində ətraf mühitin qorunması istiqamətində həyata keçirilən tədbirlərdən biri də yeni enerji avtomobillərinin istifadəsinin təşviqidir. Hökumət bu cür avtomobil istehsal edən şirkətlərə güzəştlər təklif edir, şəhər təsərrüfatlarında ənənəvi avtomobillərin istifadəsini getdikcə məhdudlaşdırır. Çin hazırda yeni enerji avtomobillərinin ən böyük bazarı hesab olunur. Ötən il ölkədə ümumilikdə 1,26 milyon ədəd bu növ avtomobil satılıb.

## Sinoptiklərdən xəbərdarlıq: Hava şəraiti kəskin dəyişəcək



Sinoptiklər hava şəraitinin dəyişəcəyi ilə bağlı xəbərdarlıq ediblər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında martın 14-dən 15-i səhərədək şimal-qərb küləyinin əsəcəyi, sürətin saniyədə 15-20 metr olacağı, arabir 23-28 metrədək güclənəcəyi gözlənilir. Havanın temperaturu ötən günlərlə müqayisədə 5-8° enəcək.

Xəbərdarlığa görə, martın 14-ü gündüzdən 15-i gündüzədək bəzi rayonlarda hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı gözlənilir. Yağıntının ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Qərb küləyi əsəcək, sürəti arabir 15-20 metr olacaq, ayrı-ayrı yerlərdə arabir 23-28 metrədək güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 5-8° enəcək.

## Elan

**Hamlet Kenqerlinskiy Ziliyeviçin adına verilmiş Bakı şəhəri, Sabunçu rayonu Ləhiş qəsəbəsində yerləşən 4106 saylı bağ sahəsinə verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.**

## Ronaldonun het-triki "Yuventus"u 1\4 finala daşıdı!




UEFA Çempionlar Liqasının səkkizdəbir final mərhələsinin növbəti cavab qarşılaşmasında "Yuventus" klubu doğma meydanda "Atletiko Madrid"i qəbul edib. Madriddə oynanılan ilk görüşdə İtaliya təmsilçisi 0:2 hesabı ilə məğlub olduğu üçün cavab qarşılaşması "Yuventus"un ardıcıl hücumları şəraitində keçib. Sürətli idman mübarizəsinin yaşandığı görüş Turin təmsilçisinin 3:0 hesablı inamlı qələbəsi ilə başa çatıb. Hər üç qolu oyunun qəhrəmanı olan Kriştiano Ronaldo vurub. Portuqaliyalı hücumçu matçın 27-ci, 48-ci və 86-cı (11 metrlik cərimə zərbəsi) dəqiqələrində adını tabloya yazdırıb. Beləliklə, ilk görüşdə məğlub olmasına baxmayaraq, inamlı qələbə qazanan "Yuventus" qitənin ən nüfuzlu klub turnirində mübarizəni davam etdirib. Kriştiano Ronaldo isə, UEFA Çempionlar Liqasında het-triklərinin sayını 8-ə çatdıraraq Lionel Messinin rekorduna şərik olub.

Belə ki, 34 yaşlı portuqaliyalı hücumçu martın 12-də UEFA Çempionlar Liqasının səkkizdəbir final mərhələsində İspaniyanın "Atletiko Madrid" komandası ilə keçirilən cavab qarşılaşmasında 3 qol vurub. Kriştiano Ronaldo bu het-triklə çempionatda ən çox het-trik edən "Barselona"nın argentinalı hücumçusu Lionel Messinin rekorduna çatıb. Onların ən yaxın izləyicilərinin aktivində 3 het-trik var. Qeyd edək ki, portuqaliyalı hücumçu 2018-ci ilin yayında "Real Madrid"dən Turin təmsilçisinə transfer olunub. O, cari mövsümdə 36 oyunda 19 qol vurub və 8 məhsuldar ötürmə edib.

## "Neftçi"nin futbolçusu Haiti millisinə dəvət alıb



"Neftçi" klubunun futbolçusu Soni Mustivar Haiti milli komandasına dəvət olunub. Klubun rəsmi saytında yer alan məlumata görə, martın 17-dən 25-dək yığmanın düşərgəsində olacaq 29 yaşlı yarımmüdafiəçi KONKAKAF Milli Liqası çərçivəsində martın 24-də keçiriləcək Kuba ilə ev oyununa çağırılıb. Qeyd edək ki, Soni Mustivar Haiti milli komandasının heyətində 15 oyun keçirib, 2 qolla yadda qalıb.

## "Lyon"un prezidenti Karim Benzemanı geri qaytarmaq istəyir




Fransa futbol klubu "Lyon"un prezidenti Jan-Mişel Ola, "Real Madrid"in hücumçusu Karim Benzemanı komandaya geri qaytarmağa ümid bəsləyir. TASS informasiya agentliyi xəbər verir ki, bu barədə Fransanın "Tout le sport" telekanalında məlumat verilib. Jan-Mişel keçən il futbolçu ilə komandaya qayıtmaq barəsində danışıqlarını və onun buna hazır olduğunu bildirib. Qeyd edib ki, futbolçu ilə iqtisadi göstəricilər barədə razılığa gəlməyiblər. "K. Benzema qayıtsaydı, əla olardı", - deyə o, əlavə edib.

## Azərbaycanlı hakim "Trefl"-"Zenit" oyununu idarə edəcək

Azərbaycanlı hakim Eldar Zülfüqarov kişi voleybolçular arasında Çempionlar Liqası yarışlarına təyinat alıb. AZƏRTAC xəbər verir ki, həmyerlimiz turnirin dörddəbir final mərhələsinin ilk oyunları çərçivəsində keçiriləcək "Trefl" (Polşa)-"Zenit" (Kazan, Rusiya) görüşünün baş hakimi olacaq. Ona slovakiyalı Blaz Markelj kömək edəcək. "Trefl"-"Zenit" oyunu martın 13-də Polşanın Qdansk şəhərindəki "Hala Ergo Arena"da keçiriləcək. Komandalar arasında cavab görüşü martın 19-da Kazanda təşkil olunacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**